*Təhsil millətin gələcəyidir!*

*Heydər Əliyev*

# AZƏRBAYCAN MÜƏLLİMİ

Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyinin orqanı

5 iyul 2025-ci il №24 (9130) www.muallim.edu.az muallim@media.edu.az

# Xankəndidə İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə görüşü




- Azərbaycan artıq üçüncü dəfədir ki, ECO-nun Zirvə görüşünə ev sahibliyi edir.
- Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var.
- İşğaldan azad edilmiş bütün Qarabağ və Şərqi Zəngəzurda hazırda genişmiqyaslı bərpa-quruculuq işləri aparılır.
- Hazırda azad edilmiş ərazilərdə 50 mindən çox insan yaşayır, çalışır və təhsil alır.
- Ermənistandan deportasiya olunmuş Qərbi azərbaycanlıların hüquqlarının təmin olunması da böyük əhəmiyyət kəsb edir.
- Qərbi azərbaycanlıların Ermənistandakı öz dədə-baba torpağına sülh yolu ilə qayıdışının təmin edilməsi sahəsində səylər bundan sonra da davam etdiriləcək.
- Azərbaycan ECO-nun işində həmişə fəal iştirak etmişdir. ECO-ya üzv ölkələrlə əlaqələrimiz uğurla inkişaf edir.
- Bizim ölkəmizdə çox müsbət sərmayə iqlimi vardır.
- Bu gün Azərbaycan bir çox ölkələrin enerji təhlükəsizliyini təmin edir.
- Əziz dostlar, əminəm ki, bugünkü müzakirələrimiz səmərəli olacaq və ölkələrimiz arasında əməkdaşlığın daha da inkişafına öz müsbət töhfəsini verəcək.




**Prezident İlham ƏLİYEV**

## Bugünkü Zirvə görüşünün Qarabağda, Xankəndidə təşkil edilməsinin xüsusi mənası var

## Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışı olub



İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər.

Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir.

Bax səh. 2

## Azərbaycan ilə Özbəkistan arasında imzalanmış sənədlər mübadilə edilib



"Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş"i Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Özbəkistanın ali təhsil, elm və innovasiya naziri Konqratbay Şaripov mübadilə etdilər.

Bax səh. 2

## Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinə AzTU-nun Fəxri doktoru diplomu təqdim olunub




Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatara Fəxri doktor diplomu təqdim edilib.

AzTU-nun Fəxri doktoru, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar da öz növbəsində təşəkkürünü ifadə edib, bundan sonra da türk dünyasının həmrəyliyi istiqamətində səylərini əsirgəməyəcəyini xüsusi vurğulayıb.

Bax səh. 2

## Qalib ölkənin gəncləri məzun oldular




Bax səh. 4



## 1 qızıl, 2 gümüş, 2 bürünc medal

## Məktəblilərimiz Balkan Riyaziyyat Olimpiadasında uğur qazanıblar

24-29 iyun tarixlərində Şimali Makedoniyanın Struqa şəhərində Yeniyetmələrin 29-cu Balkan Riyaziyyat Olimpiadasında (JBMO 2025) milli komandamız uğurla çıxış edərək 1 qızıl, 2 gümüş və 2 bürünc olmaqla, ümumilikdə 5 medal qazanıb.

Bakı şəhəri 287 nömrəli "Zəkalar" liseyinin IX sinif şagirdi Fərhad İskəndər qızıl medal, Bakı şəhəri Türkiyə Dəyanət Vəqfi Bakı Türk liseyinin IX sinif şagirdləri Hüseyn Zeynalov və Fərrux Burzu gümüş medal, Şəki şəhəri Kimya-biologiya təmayüllü liseyin IX sinif şagirdi Turan Musayev və Bakı şəhəri Fizika, riyaziyyat və informatika təmayüllü liseyin IX sinif şagirdi Murad Səfərli bürünc medal qazanıblar.

Qeyd edək ki, qızıl medal qazanan şagirdimiz Fərhad İsgəndər olimpiadada təqdim edilən bütün tapşırıqları həll edərək mümkün 40 baldan maksimum nəticə, yəni 40 bal toplayaraq olimpiadanın "First of first" ("Birincilərin birincisi") nominasiyasına layiq görülüb.

# Azərbaycan ilə Özbəkistan arasında imzalanmış sənədlər mübadilə edilib



İyulun 2-də Azərbaycan Respublikası ilə Özbəkistan Respublikası arasında imzalanmış sənədlərin Azərbaycan Prezidenti İlham Əliyevin və Özbəkistan Prezidenti Şavkat Mirziyoyevin iştirakı ilə mübadiləsi mərasimi olub.



AZƏRTAC xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyev Azərbaycan Respublikasının və Özbəkistan Respublikasının Ali Dövlətlərarası Şurasının ikinci iclasının Qərarını imzaladılar.

Sonra bir sıra sahələr üzrə sənədlər mübadilə edilib. Həmçinin “Azərbaycan Respublikası Hökuməti ilə Özbəkistan Respublikası Hökuməti arasında elm, peşə təhsili və ali təhsil sahələrində əməkdaşlığa dair Saziş”i Azərbaycanın elm və təhsil naziri Emin Əmrullayev və Özbəkistanın ali təhsil, elm və innovasiya naziri Konqratbay Şaripov mübadilə etdilər.

Qeyd edək ki, səfər çərçivəsində, həmçinin “Sumqayıt şəhəri ilə Daşkənd vilayəti arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol”, “Qəbələ şəhəri ilə Nəvai şəhəri arasında qardaşlaşma münasibətlərinin qurulması haqqında Protokol”, “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin “İMKON” reabilitasiya mərkəzli dövlət çoxsahəli ixtisaslaşdırılmış məktəbəqədər təhsil müəssisəsi arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlara xidmətlərin göstərilməsi sisteminin inkişafı sahəsində əməkdaşlıq haqqında Protokol” və “Azərbaycan Respublikasının Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Dayanıqlı və Operativ Sosial Təminat Agentliyinin DOST İnklüziv İnkişaf və Yaradıcılıq Mərkəzi ilə Özbəkistan Respublikasının Prezidenti yanında Milli Sosial Müdafiə Agentliyinin yanında “International Inclusive Hub” Beynəlxalq inklüziv peşə baza təhsili mərkəzi arasında xüsusi qayğıya ehtiyacı olan uşaqlara, habelə əhalinin sosial cəhətdən həssas qruplarına aid olan şəxslərə xidmətlərin göstərilməsi sisteminin inkişafı sahəsində əməkdaşlıq haqqında Protokol” imzalanıb.

## Azərbaycanla Özbəkistan arasında təhsil sahəsində ciddi və dərin əməkdaşlıq mövcuddur

“Azərbaycan və Özbəkistan arasında elm, peşə təhsili və ali təhsil sahəsində əməkdaşlıq genişləndirilir. Bu sənəd, ilk növbədə, ali təhsil sahəsində tərəfdaşlığı ehtiva edir”.

Bu fikirləri elm və təhsil naziri Emin Əmrullayev Azərbaycan və Özbəkistan nümayəndə heyətləri arasında keçirilən görüşdən sonra AzTV-yə açıqlamasında səsləndirib.

Nazir qeyd edib ki, Azərbaycan ilə Özbəkistan arasında təhsil sahəsində ciddi və dərin əməkdaşlıq mövcuddur.

““Böyük Qayıdış” Proqramı çərçivəsində Özbəkistan Respublikası Füzuli şəhərində hədiyyə olaraq Mirzə Uluqbəy adına orta məktəb inşa edib. Artıq həmin məktəbdə 535 şagird təhsil alır. İnanırıq ki, bu say növbəti tədris ilində daha da artacaq”, - deyə nazir bildirib.

Emin Əmrullayev əlavə edib ki, ali təhsil sahəsində universitetlərarası əməkdaşlığın və tədqiqat layihələrinin artırılması istiqamətində daha çox iş görmək mümkün olacaq.

“Hazırda Özbəkistanda 40-50 nəfər azərbaycanlı tələbə, Azərbaycanda isə təxminən bu qədər özbək tələbə təhsil alır. Bu rəqəmlərin yaxın gələcəkdə artacağına inanırıq”, - deyə nazir vurğulayıb.

# Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışı olub



İyulun 3-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Qırğız Respublikasının Prezidenti Sadır Japarov Ağdam rayonunun Xıdırlı kəndinin 1-ci mərhələsinin açılışında iştirak ediblər.

Xıdırlı kəndi Ağdam şəhərinin şimal-qərbində, rayon mərkəzindən 3 kilometr məsafədə yerləşir. 2022-ci ilin oktyabrında kəndin təməlqoyma mərasimində Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva iştirak ediblər. Kəndin layihələndirilən ərazisinin sahəsi 417 hektardan çoxdur. Buraya 1-ci və 2-ci mərhələ üzrə 6 minə yaxın əhalinin köçürülməsi,1498 fərdi evin inşası nəzərdə tutulur.

Azərbaycanın və Qırğızıstanın dövlət başçıları, həmçinin Ayköl Manas adına Xıdırlı kənd tam orta məktəbinin açılışını etdilər.

Sonra dövlət başçıları məktəbdə yaradılan şəraitlə tanış oldular.

Qeyd edək ki, 528 şagird yerlik tam orta məktəbin təməli 2024-cü ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyev və Qırğızıstan Prezidenti Sadır Japarov tərəfindən qoyulub. Məktəbin binası 5 blokdan, o cümlədən idman zalı blokundan ibarətdir. Ərazisi 2,7 hektar olan məktəb binasında 21 sinif, 2 məktəbəqədər hazırlıq, 2 informatika, 2 texnologiya, 1 hərbi hazırlıq otaqları, 3 laboratoriya, kitabxana, idman və akt zalları, yeməkxana və digər sahələr yaradılıb. Təhsil müəssisəsinin maddi-texniki bazası şagirdlərə biliklərə yüksək səviyyədə yiyələnmək üçün hərtərəfli şərait yaradır. Məktəbin ərazisində həm şagirdlərə, həm də əhaliyə xidmət göstərəcək qaçış zolağı olan geniş idman meydançası, oyun və istirahət sahələri inşa edilib.






Prezidentlər İlham Əliyev və Sadır Japarov Xıdırlı kəndi körpələr evi-uşaq bağçasının binasında yaradılan şəraitlə tanış oldular. Kənddə məskunlaşacaq əhali üçün tələbata uyğun inşa olunan körpələr evi-uşaq bağçası 120 yerlikdir. Binada qrup otaqları, musiqi otağı, idman zalları balacaların ixtiyarına veriləcək. Burada uşaqların özlərini rahat və qayğısız hiss etmələri, onların təlim-tərbiyəsi ilə yüksək səviyyədə məşğul olmaq üçün zəruri şərait mövcuddur. Uşaq bağçasının ətrafında yaşıllıq zolaqları salınıb, idman və oyun meydançaları, söhbətgahlar yaradılıb. Binanın damında Günəş panelləri quraşdırılıb.

# Şimali Kipr Türk Cümhuriyyətinin Prezidentinə AzTU-nun Fəxri doktoru diplomu təqdim olunub

İyulun 2-də Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatara Azərbaycan Texniki Universitetinin (AzTU) Fəxri doktoru diplomunun təqdim edilməsi mərasimi keçirilib.



“Azərbaycan müəllimi” xəbər verir ki, əvvəlcə AzTU-nun foyesində Ulu Öndər Heydər Əliyevin büstü ziyarət olunub.

Tədbir iştirakçılarını salamlayan AzTU-nun rektoru Vilayət Vəliyev Ersin Tatarın türk dünyası birliyi üçün xidmətlərindən danışıb.

Daha sonra Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatara Fəxri doktor diplomu təqdim edilib.

AzTU-nun Fəxri doktoru, Şimali Kipr Türk Cümhuriyyətinin Prezidenti Ersin Tatar da öz növbəsində təşəkkürünü ifadə edib, bundan sonra da türk dünyasının həmrəyliyi istiqamətində səylərini əsirgəməyəcəyini xüsusi vurğulayıb.

# Həssas yanaşma, vətəndaş məmnunluğu

### Elm və təhsil naziri Daşkəsəndə vətəndaşları qəbul edib



İyunun 30-da elm və təhsil naziri Emin Əmrullayev Daşkəsən şəhərində vətəndaş qəbulu keçirib.

Qəbulda Daşkəsən, Gəncə, Göygöl, Samux, Goranboy, Naftalan və Kəlbəcər sakinləri iştirak ediblər.

Qəbuldan əvvəl Ulu Öndər Heydər Əliyevin abidəsi ziyarət edilib, önünə gül dəstələri düzülüb.

Qəbul zamanı vətəndaşlar iş yerinin dəyişdirilməsi, fəxri adların verilməsi, tələbələrin köçürülməsi və digər məsələlərlə bağlı müraciətlər ediblər.

Elm və təhsil naziri qəbula yazılmış vətəndaşları dinləyib, müraciətlərin operativ şəkildə araşdırılması, qaldırılan məsələlərin qanunvericiliyə uyğun həlli istiqamətində nazirliyin aidiyyəti qurumlarının rəhbərlərinə tapşırıqlar verib.





# Elm və təhsil naziri İtaliyanın ölkəmizdəki səfiri ilə görüşüb



İyulun 1-də elm və təhsil naziri Emin Əmrullayev İtaliya Respublikasının Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Luca Di Gianfrancesco ilə görüşüb.

Görüş çərçivəsində iki ölkə arasında elm və təhsil sahəsində cari əməkdaşlıq və gələcək inkişaf perspektivləri müzakirə edilib.

## Nazir Oğuzda vətəndaşları qəbul edəcək

Elm və təhsil naziri Emin Əmrullayev 25 iyul tarixində Oğuz şəhərində vətəndaşları qəbul edəcək.

Qəbulda Oğuz, Şəki, Qax, Zaqatala, Balakən və Qəbələ sakinləri iştirak edə bilərlər.

Adları çəkilən şəhər və rayonların sakinləri 11 iyul (saat 18:00-dək) tarixinədək Elm və Təhsil Nazirliyinin Çağrı Mərkəzinin 146 — 2 və 146 — 6 nömrəli telefonlarına (yalnız iş günləri və saatları ərzində) zəng etməklə qəbula yazıla bilərlər. Bununla yanaşı, nazirliyin rəsmi saytının *https://edu.gov.az/az/contact_us* bölməsinə elektron formada və ya +994 51 206 78 48 nömrəsinə “WhatsApp” vasitəsilə müraciət göndərmək mümkündür.

Nəzərinizə çatdırırıq ki, qəbulda iştirak üçün qeydiyyat mütləqdir.

# Sertifikatlaşdırma: davamlı inkişaf



## Təkrar sertifikatlaşdırma imtahanında iştirak edən müəllimlərlə bağlı

### MƏLUMAT

İyunun 20-də ötən il test imtahanı mərhələsində keçid balını toplaya bilməyən müəllimlər üçün keçirilən təkrar sertifikatlaşdırma imtahanında 3338 müəllim iştirak edib. Onlardan 1328 nəfəri keçid balını toplayaraq müsahibə mərhələsində iştirak imkanı qazanıb. 2006 müəllim isə müvafiq keçid balını toplaya bilməyib.

Eyni zamanda imtahanda iştirak etməyən 334 müəllim sertifikatlaşdırmadan keçməmiş hesab olunub. Təkrar sertifikatlaşdırma prosesində iştirak edən 4 nəfərin nəticələri imtahan qaydalarını pozduğu üçün ləğv olunub.

Xatırladaq ki, cari ilin əvvəlindən ötən il sertifikatlaşdırma imtahanından keçməyən müəllimlərə ehtiyaclarına uyğun olaraq Təhsil İnstitutu tərəfindən təlimlər, müxtəlif vebinar və sınaq imtahanları təşkil olunub.

Təkrar sertifikatlaşdırma prosesinin test imtahanı mərhələsi üzrə 20-23 iyun tarixlərində apellyasiya müraciətləri qəbul edilib. Apellyasiyaya daxil olan müraciətlər müvafiq qaydada araşdırılıb. Təhsilverənlərin təkrar sertifikatlaşdırılması prosesinin test imtahanı mərhələsində təqdim olunan suallarla bağlı səhv aşkarlanmayıb, hər hansı bir texniki problem müəyyən edilməyib.

Təkrar sertifikatlaşdırmada minimum tələbi ödəməyən, prosesdə iştirak etməyən, eyni zamanda imtahan qaydalarını pozduğu üçün nəticələri ləğv edilən müəllimlərin müqavilələrinə əmək qanunvericiliyinin tələblərinə uyğun olaraq xitam verilib.

# Yüksək nəticə göstərən müəllimlər

## “Sertifikatlaşdırma gələcək fəaliyyətim üçün stimuldur”

Sertifikatlaşdırma imtahanı yekunlaşsa da, qazandırdığı uğurlar, yaşatdığı həyəcanlı anlardan hələ də danışılır.

Adıçəkilən imtahanda maksimal nəticə göstərən Kəlbəcər rayonu 49 nömrəli məktəbin müəllimi Alsu Mikayılova da belələrindəndir.

Sertifikatlaşdırma imtahanında 60 bal toplayan Alsu Mikayılova müxtəlif vaxtlarda Yevlax şəhəri İ.Şıxlı adına 8 nömrəli, Kəlbəcər rayonu 48 nömrəli tam orta və Yevlax rayonu Cırdaxan kənd ümumi orta məktəblərində informatika fənnini tədris edib.

“2021-ci ildə MİQ müsabiqəsində iştirak edərək Kəlbəcər rayonu 49 nömrəli tam orta məktəbə daimi əsaslarla işə qəbul olmuşam. İlk dəfədir ki, sertifikatlaşdırma imtahanında iştirak edirdim. İmtahana qədərki həyəcanı nəzərə almasaq, proses çox gözəl keçdi.

Özümdən maksimum bal gözləyirdim, bunu əldə edəcəyimə də inanırdım, çünki çalışırdım. Belə deyək, uğurun arxasında planlı hazırlaşma, təcrübəni nəzəri biliklərlə uyğunlaşdırma və davamlı öyrənməyə olan maraq dayanır. Düşünürəm ki, bu uyğunlaşmanı düzgün quran hər kəs yüksək nəticə əldə edə bilər. Nəticə sadəcə bir göstərici deyil, mən onu gələcək fəaliyyətim üçün stimul kimi dəyərləndirirəm. Həmişə şagirdlərə dediyimiz cümlə bizim üçün də keçərlidir: Hələ öyrənəcəyimiz çox şey var və sertifikatlaşdırma bu prosesdə bizə dəstək olur”.



**Rəmziyyə HƏSƏNOVA,**
*Qarabağ və Şərqi Zəngəzur üzrə regional təmsilçi*

## “Sertifikatlaşdırma müəllimlərin peşəkar inkişafına nail olmaq baxımından əvəzolunmazdır”

Masallı şəhəri texniki-riyaziyyat təmayüllü “Dəfinə” liseyinin riyaziyyat müəllimi, Əməkdar müəllim, 67 yaşlı Əlinaz Talıbov könüllü olaraq sertifikasiya imtahanında iştirak edərək 56 bal toplayıb.

Sertifikatlaşdırma prosesi ilə bağlı təəssüratlarını “Azərbaycan müəllimi" ilə bölüşən Ə.Talıbov bildirib ki, artıq üçüncü ildir keçirilən sertifikatlaşdırma təhsilverənlərin peşəkarlıq səviyyələrini, peşə yararlılıqlarını yoxlamaq, təlim ehtiyaclarını öyrənməklə onların peşəkar inkişafına nail olmaq baxımından əvəzolunmazdır.

“İşlədiyim kollektivdə sertifikasiyadan uğurla keçən müəllimlərin yeni yanaşmaları, daha peşəkar münasibətləri, yeni təlim texnologiyalarından böyük səriştə və ustalıqla istifadəsi buna bariz sübutdur. 18 iyun 2025-ci il tarixində könüllü olaraq riyaziyyatdan sertifikasiya imtahanında iştirak etdim. İmtahanın obyektiv və şəffaf təşkili, idarəolunması və nəzarətçilərin mədəni davranışları elə ilk anlardan müsbət aura formalaşdırdı. İmtahanın məzmununa gəlincə isə, pedaqoji prinsiplər tamamilə gözlənilmişdi”, - deyə o bildirib.

Əlinaz müəllim onu da qeyd edib ki, son on illərdə təhsil sistemimiz bütövlükdə beynəlxalq təhsil sisteminə inteqrasiya etməklə, dinamik və modern fəaliyyəti ilə gələcək uğurlarımıza nikbinliklə baxmağa əsas verir:



“Bir sözlə, hər cür infrastruktura malik məktəb binalarının, maddi-texniki təminatın, müasir standartlar səviyyəsində tədris vəsaitlərinin pedaqoji prosesin hər bir üzvü üçün əlçatan olması illərlə arzuladığımız modern pedaqoji mühitdə işləməyimizə şərait yaradıb. Təbii ki, bu gün pedaqoji prosesin subyekti kimi, biz müəllimlərin də elmi, pedaqoji biliklərimizin və metodiki ustalıqlarımızın yüksək səviyyədə olması prioritet məsələ kimi hər birimizin qarşısında duran əsas vəzifədir”.

# QALİB ÖLKƏNİN gəncləri məzun oldular

*Firudin QURBANOV*

## Ölkənin gələcəyi məhz yaradıcı gənclərin fəaliyyətinin səmərəliliyi ilə təmin olunur

### “SABAH-ın Məzunu 2025” tədbiri keçirilib

İyulun 2-də Heydər Əliyev Sarayında “SABAH-ın Məzunu 2025” tədbiri keçirilib. Tədbirdə dövlət və özəl qurumların rəsmiləri, millət vəkilləri, ali təhsil müəssisələrinin rektorları, müəllim və tələbələr, eləcə də digər qonaqlar iştirak ediblər.









Əvvəlcə tədbir iştirakçıları SABAH məzunlarının nailiyyətlərini əks etdirən sərgi ilə tanış olublar.

Tədbir Dövlət Himninin səsləndirilməsi ilə başlayıb, ardınca şəhidlərimizin xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Çıxış edən elm və təhsil nazirinin müavini Firudin Qurbanov SABAH qruplarının yaradılmasında əsas məqsədin istedadlı, yüksək bilikli və yaradıcı gəncləri bir araya gətirmək, onların bacarıqlarını dəstəkləmək olduğunu vurğulayıb. Nazir müavini bildirib ki, ölkənin gələcəyi məhz yaradıcı gənclərin fəaliyyətinin səmərəliliyi ilə təmin olunur. SABAH proqramı isə məhz bu məqsədə xidmət edir.

Sonda nazir müavini SABAH məzunlarına sevdikləri işlə məşğul olmağı, daim öz üzərlərində çalışmağı və ən əsası — dəyərlərimizi qoruyub saxlamağı tövsiyə edib.

Tədbir SABAH qruplarının fəaliyyəti haqqında videoçarx nümayiş etdirilməsi ilə davam edib.

Tədbirdə SABAH məzun tədbirinin hər il təkrarlanan bir ənənəsi - rəmzi SABAH açarının hazırkı məzunlardan növbəti ilin məzunlarına ötürülməsi baş tutub.

Daha sonra ən yüksək göstəriciləri ilə fərqlənən SABAH-ın məzunları ali təhsil müəssisələrinin rektorları tərəfindən təltif olunublar.

Tədbirdə çıxış edən SABAH Məzunlar Assosiasiyasının sədr müavini Mirgünay Bayramova yeni qurumun fəaliyyəti və qarşıya qoyulan məqsədlər haqqında danışıb.

Tədbir çərçivəsində SABAH qrupları tələbələrinin ifasında musiqi nömrələri də səsləndirilib.

Qeyd edək ki, 2024-2025-ci tədris ilində 10 ali təhsil müəssisəsi üzrə 955 bakalavr və 466 magistr SABAH qruplarından məzun olur. Hazırda Elm və Təhsil Nazirliyi yanında Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin “SABAH qrupları” layihəsi 13 ali təhsil müəssisəsini, 8 ixtisas istiqaməti üzrə 71 ixtisas və ixtisaslaşmanı, bakalavriat və magistratura səviyyələri üzrə 4134 tələbəni və 6842 məzunu əhatə edir.

## “İşğaldan azad olunan Azərbaycan torpaqlarında məzunlarımızın iştirakı ilə genişmiqyaslı tikinti işləri gedir”




### AzMİU-da “Məzun günü”

50 ilin universiteti - Azərbaycan Memarlıq və İnşaat Universitetini (AzMİU) 2024/2025-ci tədris ilində başa vuran tələbələr üçün “Məzun günü” idi. Məzun olmağı bacaran hər tələbə oradaydı. Elm və təhsil nazirinin müavini İdris İsayev, universitetin rəhbərliyi, bütün müəllimləri də yanlarındaydı - Bakı Kristal Zalında. Onları təbrikə gələnlər arasında tanınmış elm və ictimaiyyət xadimləri, dövlət qurumlarının nümayəndələri və valideynləri də vardı.

**“Hərbi xidmətə gedirəm”**

Təhsil aldıqları universitetin 50-ci ildönümündə bir təhsil səviyyəsi ilə, tələbəlik həyatı ilə, AzMİU ilə vidalaşırdılar. Özlərini xoşbəxt hiss etsələr də, həyəcanlarını da gizlədə bilmirdilər. Xoşbəxtliyi yerişindən bəlli olan məzunun özünü tanımadan adını öyrənirik. Kürəyində “Şahalı Şahalıyev” yazılıb. Şahalı “İnformasiya texnologiyaları” ixtisası üzrə məzun olur. İsmayıllı rayonundandır. 2021-ci ildən Bakıda tələbə həyatı yaşayır: “İxtisasım üzrə təhsil almaq maraqlı idi. Məncə, mənə lazım olan əsas baza biliyim formalaşıb. Artıq işləyirəm, amma işdən çıxmaq məcburiyyətindəyəm. Hərbi xidmətə gedirəm”.

**“Burada çox şey öyrəndim”**

Füruzə Kazımzadə də məzundur, amma magistratura səviyyəsindən. O, eyni ixtisas üzrə - “Geodeziya və xərtitəçilik mühəndisliyi” ixtisası üzrə başqa universitetdə bakalavriat, AzMİU-da isə magistratura səviyyəsini tamamlayıb: “İxtisasım memarlığa yaxındır. Bu ixtisas üzrə Memarlıq və İnşaat Universitetində təhsil səviyyəmi artırmağın doğru qərar olduğunu düşünürəm. Burada çox şey öyrəndim”.

Çox şey öyrənsə də, hələ öyrəndiklərini tətbiq imkanı olmayıb: “Hazırda nəqliyyat sahəsində işləyirəm. Ancaq öz ixtisasım üzrə fəaliyyət göstərməyi çox istəyirəm”.

**Bakalavriat səviyyəsini 9 ilə bitirən məzunlar**

Təbii, belə məzunlar da var - 4 illik bakalavriatı 9 ilə bitirənlər. Məsələn, Yasin Süleymanov 2016-cı ildə ali məktəbə daxil olub. “Meliorasiya və su təsərrüfatı tikintisi mühəndisliyi” ixtisası üzrə Mühəndis kommunikasiya sistemləri fakültəsində III kursadək təhsil alsa da, yarımçıq qoyub hərbi xidmətə yollanıb: “Hərbi xidmətdə olduğum vaxt müharibə başladı və Qubadlı, Cəbrayıl, Füzuli uğrunda gedən döyüşlərdə iştirak etdim. Qayıtdıqdan sonra ailəmin təkidi ilə təhsilimə davam etməyi qərara aldım. Artıq 9 il əvvəl daxil olduğum universiteti bitirirəm”.

Yasin deyir modellik fəaliyyəti ilə məşğuldur və bundan sonra da bu istiqamətdə davam edəcək.

**“Nümunəvi tələbə ola bilməsəm də, nümunəvi əsgər oldum”**

Yasinin qrup yoldaşı Elçin Məhərli də 2016-cı ildən AzMİU-nun tələbəsi idi: “9 illik universitet həyatımız bu gün yekunlaşır. Təhsil almaqda maraqlı biri olmuşam. Amma imkansızlıqdan həm də işləməliydim və nəticədə 4 illik bakalavriat səviyyəsi üzrə təhsilim bitsə də, kreditini ödəmədiyim fənlər vardı. Kəsirlərimi düzəltmədən hərbi xidmətə yollandım. Mən hərbi xidmətdə olanda müharibə başladı. Nümunəvi tələbə ola bilməsəm də, nümunəvi əsgər, yaxşı döyüşçü oldum”.

2022-ci ildə hərbi xidmətdən qayıdıb kəsirim olan fənlər üzrə təhsilimə davam etdim. Bu dəfə nümunəvi tələbə oldum. Təhsildə uğur qazandım və indi məzun oluram”.

AzMİU-nun rektoru professor Gülçöhrə



Məmmədova bildirib ki, 2024/2025-ci tədris ilində ümumilikdə 2422 nəfər tələbə universiteti uğurla bitirib: “Onlardan 2301 nəfəri adi əsaslarla, 70 nəfəri isə fərqlənmə diplomu ilə məzun olub. Məzunlar sırasında 51 əcnəbi tələbə də yer alır ki, bu da AzMİU-nun beynəlxalq nüfuzunun və qlobal əməkdaşlıq imkanlarının göstəricisidir.

Bakalavriat səviyyəsini 1292, magistratura pilləsini 631 tələbə başa vurub: “Universitetin nəzdində fəaliyyət göstərən İnşaat Kollecinin 499 məzunu ali və orta ixtisas təhsili səviyyəsində peşəkar inkişaf yoluna çıxır. Eyni zamanda, AzMİU-nun həyata keçirdiyi beynəlxalq ikili diplom proqramı çərçivəsində bu il 6 tələbə məzun olub ki, onlardan 5-i Azərbaycan, 1-i Türkiyə vətəndaşıdır. Bu göstəricilər universitetin çoxpilləli, çevik və beynəlxalq yönümlü təhsil strategiyasının uğurla reallaşdığını təsdiqləyir”.

G.Məmmədova əlavə edib: “Məzunlarımız ölkəmizin böyük tikinti şirkətlərində, memarlıq-layihələndirmə institutlarında, demək olar ki, bütün sahələrdə fəaliyyət göstərirlər. İşğaldan azad olunan Azərbaycan torpaqlarında məzunlarımızın iştirakı ilə genişmiqyaslı tikinti işləri gedir”.

**Bu il Azərbaycanda 63 mindən çox gənc məzun oldu**

Elm və təhsil nazirinin müavini İdris İsayevin sözlərinə görə, ölkədə təhsil sistemi müasirləşir, beynəlxalq standartlara uyğunlaşdırılır. Ali təhsilin əlçatanlığı getdikcə artır.

Nazir müavini vurğulayıb ki, təhsil dövlətin əsas prioritetlərindən biridir. O, valideynlərin də tədris prosesində aktiv iştirak etdiyi fikrindədir.

**“Əgər bu kürsüdə bu gün uğurlarımdan danışıramsa...”**

“Məzun günü”ndə müxtəlif fakültələri fərqlənmə ilə bitirən tələbələrə diplomlar təqdim olunub. Həmçinin təhsil müddətində ictimai fəallığı, innovativ təşəbbüsləri və sosial layihələrdə iştirakı ilə seçilən məzunlar xüsusi sertifikat və hədiyyələrlə mükafatlandırılıblar.

Onlardan biri də Mexanika və informasiya texnologiyaları fakültəsinin “İnformasiya texnologiyaları” ixtisasının məzunu Nihat Quliyevdir. Nihat qazandığı uğurlara görə müəllimləri, universiteti ilə yanaşı, dostlarına və valideynlərinə təşəkkür edib: “Tələbə yoldaşlarım Xədicə Babayeva və Elçin Hüseynliyə təşəkkür edirəm. Əgər bu kürsüdə bu gün uğurlarımdan danışıramsa, bu, onların da köməyi sayəsindədir”.

**“Universitetdə qazandıqlarım gələcək fəaliyyətimdə də faydalı olacaq”**

Daha bir mükafatçı Gülnar Lətifli “Marketinq” ixtisası üzrə təhsil alıb: “Universitetə qəbul olunandan bəri fəal tələbə oldum. Tələbə Gənclər Təşkilatı fəallarından biri idim. Bu gün də ictimai fəaliyyətimə görə mükafatlandırıldım”.

“Marketinq” ixtisası üzrə təhsil alsa da, dövlət qulluqçusu olmaq niyyətindədir: “Marketinq” ixtisası üzrə kadrlara tələbat var. Mən də ona görə bu ixtisası seçdim. Peşman deyiləm. Hesab edirəm ki, universitetdə qazandıqlarım gələcək fəaliyyətimdə də faydalı olacaq”.

**“Qürur duyuram ki, belə gənclər arasında mənim də övladlarım var”**

Valeh Lətifov həyəcanla qızının mükafatlandırılmasını gözləyir ki, əlindəki çiçəyi ona versin: “Qızım bir azdan mükafatlandırılacaq, həyəcanla onu gözləyirəm”.

O, qızlarının hər zaman və hər mənada yanındadır: “İki qızım var. Birinci qızım bitirib, indi ikinci qızım təhsilini tamamlayır. Gülnarın yüzlərlə sertifikat və diplomları var. Bizi həmişə sevindirib. Savadlı, gələcəyə inamlı övladlar yetişdirmək çox önəmlidir. Qürur duyuram ki, belə gənclər arasında mənim də övladlarım var”.

**Ruhiyyə DAŞSALAHLI**

# ADNSU Azərbaycan iqtisadiyyatı üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayan aparıcı təhsil müəssisələrindən biridir









İyunun 30-da Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin (ADNSU) məzunları üçün Avropa Oyunları Parkında təntənəli "Məzun günü" tədbiri təşkil olunub.

Universitetdən "Azərbaycan müəllimi"nə bildirilib ki, tədbirdə dövlət qurumlarının, müxtəlif nazirliklərin və özəl müəssisələrin rəhbər şəxsləri, millət vəkilləri, universitetin professor-müəllim heyəti və tələbələr iştirak ediblər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin səsləndirilməsi ilə başlayıb. Ardınca Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda şəhid olmuş qəhrəmanların xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

ADNSU-nun rektoru, dosent Rüfət Əzizov "Məzun günü"ndə açılış nitqi ilə çıxış edərək ali təhsilin inkişafında dövlət siyasətinin əhəmiyyətini vurğulayıb. O bildirib ki, ADNSU bu gün Azərbaycan iqtisadiyyatı üçün yüksəkixtisaslı mütəxəssislər hazırlayan aparıcı təhsil müəssisələrindən biridir. Dosent Rüfət Əzizov məzunlara müraciət edərək qeyd edib ki, onlar universitetin adını hər zaman uca tutmalı, qazandıqları bilik və bacarıqlarla ölkənin iqtisadi inkişafına öz töhfələrini verməlidirlər.

Elm və təhsil nazirinin müavini İdris İsayev, kənd təsərrüfatı nazirinin müavini Elçin Zeynalov çıxış edərək Azərbaycan ali təhsil sisteminin beynəlxalq rəqabətədavamlı şəkildə inkişaf etdiyini diqqətə çatdırıblar. Məzunları təbrik edən nazir müavinləri çıxışlarında ADNSU məzunlarının ölkə iqtisadiyyatının, xüsusən də sənaye və enerji sahələrinin inkişafına mühüm töhfə verəcəyinə əmin olduqlarını bildiriblər.

Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin vitse-prezidenti, ADNSU-nun məzunu Arzu Cavadova universitetdə keçirdiyi tələbəlik illərini xatırladaraq bildirib ki, ADNSU-da formalaşan bilik və peşəkar baza hər bir məzunun gələcək karyerasında əvəzsiz rol oynayır. O, universitetin yetişdirdiyi mühəndislərin ölkənin neft və sənaye sektorunda mühüm layihələrə imza atdığını vurğulayıb.

Bildirilib ki, bu il ADNSU-nu 4 mindən çox məzun bitirib.

Tədbirdə fakültələr üzrə fərqlənən məzunlara mükafatlar təqdim olunub. Rəsmi hissədən sonra "Məzun günü" tədbiri sənət adamlarının və tələbələrin musiqi ifaları ilə davam etdirilib.

# Ali təhsilin flaqmanı məzunlarını yola saldı






İyunun 25-də Milli Gimnastika Arenasında Bakı Dövlət Universitetinin (BDU) "Məzun günü" keçirilib. Əvvəlcə Dövlət Himni səsləndirilib, Ümummilli Lider Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda həlak olan şəhidlərimizin əziz xatirəsi anılıb. Sonra BDU haqqında videoçarx nümayiş olunub.

Tədbiri açıq elan edən BDU-nun rektoru Elçin Babayev məzunları təbrik edib, onlara uğurlar arzulayıb. Rektor bildirib ki, 106 il əvvəl 2 fakültə, 44 nəfərlik professor-müəllim və 1094 nəfərlik tələbə heyəti ilə fəaliyyətə başlamış BDU-da hazırda 16 fakültədə 1500 nəfərlik professor-müəllim heyəti çalışır, 25000-dən çox tələbə təhsil alır.

Diqqətə çatdırılıb ki, BDU fəaliyyət göstərdiyi 106 il ərzində 200 mindən çox yüksəkixtisaslı mütəxəssis, o cümlədən bir çox xarici ölkələr üçün yüzlərlə peşəkar kadr yetişdirib. Rektor vurğulayıb ki, BDU öz məzunları ilə həmişə fəxr edir, onların elmi, peşə və yaradıcı fəaliyyətindən qürur duyur.

Sonra universitet tələbələrinin ifasında BDU-nun himni səsləndirilib.

Elm və təhsil nazirinin müavini Kənan Kərimzadə çıxış edərək bildirib ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən islahatlar çərçivəsində son illər ali təhsil müəssisələrinin maddi-texniki bazası gücləndirilib, müasir infrastruktur yaradılıb və qabaqcıl texnologiyalar tədris prosesinə tətbiq olunub. 2025/2026-cı tədris ilindən etibarən rekord sayda - 75000 tələbə qəbul ediləcək. Bu da təhsilin inkişafına dövlətin verdiyi dəyərin göstəricisidir.

Nazir müavini məzunları təbrik edərək vurğulayıb ki, qarşıda sizi çoxsaylı imkanlar gözləyir. Müasir dünyanın dəyişən çağırışları qarşısında yalnız bilik kifayət etmir. Dürüstlük, vətənpərvərlik, məsuliyyət və vətəndaşlıq şüuru da bir o qədər vacibdir. Ümid edirəm ki, siz Bakı Dövlət Universitetinin adını hər zaman uca tutacaq, onu uğurlarınızla təmsil edəcəksiniz.

Gənclər və idman naziri Fərid Qayıbov məzunları təbrik edərək, onların illər ərzində çəkdikləri zəhməti, əldə etdikləri bilikləri yüksək qiymətləndirib.

BDU-nun sıx əməkdaşlıq etdiyi İslam Dünyası Təhsil, Elm və Mədəniyyət Təşkilatının (ICESCO) Baş direktoru Salim bin Məhəmməd əl-Malikin təbrik videomüraciəti oxunub.

"Konstitusiya və Suverenlik İli"nə və Qarabağda qazanılan möhtəşəm Zəfərin 5 illik yubileyinə həsr olunmuş video nümayiş olunub.

Milli Məclisinin sədr müavini, BDU-nun Konstitusiya hüququ kafedrasının müdiri Ziyafət Əsgərov, Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri Sahib Məmmədov, BDU-nun Himayəçilər Şurasının üzvü, bp-nin Xəzər bölgəsində kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Vətən Müharibəsi Qəhrəmanı Zaur Hüseynov, "Şuşa Şəhəri Dövlət Qoruğu" İdarəsinin icraçı direktoru Tural Novruzov, Fizika fakültəsi Maddə quruluşu kafedrasının müdiri professor Sacidə Əbdülvahabova, Beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin məzunu, ABŞ-nin Çikaqo Universitetinin magistrantı Fidan Kərimli məzunları təbrik edib, onlara şəxsi və iş həyatlarında uğurlar arzulayıblar.

Türkiyənin İstanbul Texniki Universitetinin rektoru Hasan Mandal, İzmir Yüksək Texnologiyalar İnstitutunun rektoru Yusuf Baran, Çin Xalq Respublikasının Anhui Universitetinin Universitet Şurasının sədri Yu Baotao, Şimal-şərqi Neft Universitetinin prezidenti Dong Hongli, Satbayev adına Qazax Milli Tədqiqat Texniki Universitetinin rektoru Meiram Begentayev, Namanqan Dövlət Universitetinin rektoru Abduqəffar Qırğızbəyev, Pakistanın Milli Texnologiya Universitetinin (NUTECH) rektoru Moazzam Ejaz, Daşkənd Dövlət Şərqşünaslıq Universitetinin rektoru Gülçöhrə Rixsiyeva, BDU-nun müxtəlif ölkələrdə çalışan tanınmış məzunları videomüraciətlərində Universitetin Azərbaycanın ictimai-siyasi həyatında önəmini qeyd edib, məzunlara təbriklərini çatdırıblar.

Tədbirdə Ümumi Orta Müvəffəqiyyət Göstəricisi (ÜOMG) yüksək olan və xüsusi fəallığı ilə seçilən 34 məzuna sertifikat və hədiyyələr təqdim edilib.

Tədbir konsert proqramı ilə davam edib.

**Mərziyyə KAZIMZADƏ**

# MİQ üzrə müsabiqənin test imtahanı mərhələsinə başlanılıb



İyulun 3-dən müəllimlərin işə qəbulu (MİQ) üzrə müsabiqənin test imtahanı mərhələsinə start verilib. İmtahanın ilk gününə texnologiya, təsviri incəsənət, Azərbaycan dili, informatika, rus dili və ədəbiyyatı fənləri üzrə ümumilikdə 9201 nəfər namizəd dəvət olunub.

Test imtahanları 3-10 iyul tarixlərində ölkə üzrə 44 imtahan mərkəzinidə iki seans olmaqla keçirilir. Test imtahanında hər namizədə ixtisası üzrə ümumi təhsil müəssisələrinin fənn proqramlarına aid 40, tədris metodikası və təlim strategiyalarına aid 20 sual təqdim edilir. Bu mərhələdə ixtisas üzrə düzgün cavablandırılan test tapşırıqları 2, tədris metodikası və təlim strategiyaları üzrə isə 1 bal olaraq hesablanacaq. Ümumilikdə isə 100 ballı qiymətləndirmə sistemi tətbiq ediləcək.

Qaydalara əsasən, ixtisas üzrə 1 səhv cavablandırılmış sual 0,5 bal, tədris metodikası və təlim strategiyaları üzrə isə 0,25 bal şəklində hesablanaraq namizədin imtahan nəticəsinə təsir göstərəcək.

Test tapşırıqlarının cavablandırılması üçün namizədlərə 150 dəqiqə vaxt ayrılır.

Qeyd edək ki, test imtahanında ixtisas üzrə minimum 34, tədris metodikası və təlim strategiyaları üzrə minimum 6 olmaqla ümumilikdə 40 bal və daha yüksək nəticə göstərən namizədlər vakant yerlərin seçiminə buraxılırlar.

# Kembric Universiteti azərbaycanlı tələbəni mükafatlandırdı

*Cavid RƏHİMLİ*



## "Mükafatı almaq mənim üçün qürurverici oldu"

Azərbaycanlı gənc, "2022-2028-ci illər üçün Dövlət Proqramı" çərçivəsində Birləşmiş Krallığın Kembric Universitetində beynəlxalq hüquq üzrə magistr təhsili alan Cavid Rəhimli növbəti uğura imza atıb.

C.Rəhimli Kembric Universitetinin Hüquq fakültəsi tərəfindən "Pro Bono Platinum" mükafatı ilə təltif olunub.

Fakültənin sədri, İngilis hüququ üzrə Britaniya tarixində ilk qadın professor və Kral Vəkili olan Luiz Gulifer pulsuz hüquqi xidmət (pro bono) sahəsində fərqlənən tələbələri mükafatlandırıb. "Pro bono" ödənişsiz hüquqi xidmətdir. Mükafat kifayət qədər "pro bono" iş görən hüquqşünaslara verilir. Mükafat gənc hüquqşünaslar üçün prestijli hesab olunur.

"Fakültənin aktiv tələbələrindən biri kimi ən yüksək "Platinum" mükafatını almaq mənim üçün qürurverici oldu", - deyən C.Rəhimli ötən il ərzində Kral Vəkilinin köməkçisi kimi yerli məhkəmədə beynəlxalq hüquqla bağlı məhkəmə işində iştirak edib. "Amnesty International" təşkilatı üçün Haitidə uşaqların hərbi qruplara qoşulması ilə bağlı OSINT istintaqının aparılması və sübutların BMT-yə təqdim olunması, parlamentə təqdim ediləcək süni intellekt və cinayət ədaləti ilə bağlı QHT hesabatının hazırlanmasında dəstək göstərib, eyni zamanda Beynəlxalq hüquq üzrə bloqun redaktorluğunu həyata keçirib.

Qeyd edək ki, C.Rəhimli 2024-cü ildə ABŞ-nin Corc Vaşinqton Universitetində xarici əlaqələr hüququ üzrə magistr dərəcəsi alıb, Oksford Universitetində insan hüquqları üzrə mübadilə proqramında iştirak edib.

Hazırda Dövlət Proqramı çərçivəsində təhsil almaqla yanaşı, eyni zamanda Londonda beynəlxalq hüquq üzrə ixtisaslaşmış hüquq firması olan Volterra Fiettada hüquqşünas kimi çalışır.

Cavid Rəhimlinin uğur hekayəsi göstərir ki, artıq azərbaycanlı gənclər dünyanın ən nüfuzlu universitetlərində təkcə təhsil almaqla kifayətlənmir, həm də öz bacarıqları ilə fərqlənirlər.

**Oruc MUSTAFAYEV**

# “BMU-nun dünyanın ən yaxşı 1000 universiteti sırasına daxil olması tarixi nailiyyətdir”

Dünya universitetlərinin yeni reytinq siyahısında (QS World University Rankings 2026) ciddi irəliləyişə nail olan ali təhsil ocaqlarımızdan biri də Bakı Mühəndislik Universitetidir (BMU). Siyahıda dünya üzrə ilk TOP 1000-ə daxil olan BMU ötən illə müqayisədə 550 pillə irəliləyərək 901-950 aralığında qərarlaşıb. BMU-nun əldə etdiyi bu mühüm nəticə universitetin tarixində bir ilkdir. Ali məktəbin əldə etdiyi bu nailiyyətin əsasında nələrin dayanması, eləcə də elmi potensialın gücləndirilməsi, əcnəbi tələbələrlə iş və digər məsələlərlə bağlı suallarımızı BMU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru Ətrabə Gül cavablandırır.



*Ətrabə GÜL*

## “Universitetimizin reytinq tədqiqatlarında mövqeyi elmi əsaslandırılmış və strateji idarəolunan ali təhsil modelinin nəticəsidir”

*- Dünya universitetlərinin yeni reytinq siyahısında (QS World University Rankings 2026) BMU ciddi uğura imza atıb. Bu uğuru necə dəyərləndirərdiniz?*

- BMU-nun “QS World University Rankings 2026” sıralamasında ilk dəfə olaraq dünyanın ən yaxşı 1000 universiteti sırasına 901-950 aralığında daxil olması, həm ali təhsil sistemimiz, həm də universitetin özü üçün tarixi nailiyyətdir. Bu nəticə BMU-nun təkcə milli deyil, qlobal akademik məkanın fəal və rəqabətdavamlı iştirakçısına çevrildiyini göstərir.

Qeyd etmək yerinə düşər ki, bu yüksəliş təsadüfi deyil, illərlə aparılan sistemli islahatların, beynəlxalq əməkdaşlıqların genişləndirilməsinin, elmi-tədqiqat fəaliyyətinin gücləndirilməsinin və dayanıqlı inkişaf strategiyalarının nəticəsidir. BMU artıq dünyanın aparıcı universitetlərinin sırasına doğru irəliləyən və beynəlxalq təhsil bazarında öz sözünü deməyə başlayan nüfuzlu ali təhsil ocağıdır. 2026-cı il reytinq nəticələri, eyni zamanda onu da göstərdi ki, Azərbaycan ali təhsili Cənubi Qafqaz regionunda liderliyini möhkəmləndirir.

*- BMU-nun bu uğurunu hansı faktorlarla izah edərdiniz? BMU, əsasən, hansı indikatorlar üzrə reytinqdə yüksək mövqe əldə edib?*

- BMU-nun QS reytinqində fərqləndiyi əsas indikatorlardan biri məhz beynəlmiləlləşmə (internationalization) kriteriyasıdır. Son bir ildə bu istiqamətdə görülən işlər xüsusi dinamika ilə seçilir və bu sahədə aparılan məqsədyönlü fəaliyyət reytinq göstəricilərinə əhəmiyyətli təsir göstərib. Digər vacib məqam odur ki, BMU QS-in beynəlmiləl tədqiqat şəbəkəsinə qoşularaq, akademik reputasiyasını və nüfuzunu daha da artırıb, əməkdaşlıq spektrini ciddi şəkildə genişləndirib. Bu artım tədris mühitində multikultural dəyərlərin inkişafına, akademik proqramların ingilisdilli modellərlə zənginləşməsinə, universitetin beynəlxalq tanınmasına zəmin yaradır.

Paralel olaraq, BMU-nun dünyanın müxtəlif ölkələri ilə imzaladığı əməkdaşlıq müqavilələri, beynəlxalq proqramlarda ikili diplom layihələri, əcnəbi akademik heyətin cəlbi universitetin beynəlxalq nüfuzunu əhəmiyyətli dərəcədə artırır.

Davamlı inkişaf və “yaşıl universitet” modeli çərçivəsində BMU-nun kampusunda alternativ enerjiyə (günəş panelləri, külək turbinləri) üstünlük verilməsi və tullantıların idarə olunması sistemi onu dayanıqlılıq reytinqlərində önə çıxarıb.

Bundan başqa, BMU-da tədris proqramları əmək bazarının ehtiyaclarına uyğun yenilənir. Müəssisələrlə sıx əməkdaşlıq nəticəsində tələbələr real layihələrdə iştirak edir və praktik bacarıqlar qazanır. Bu da onların məzun olduqdan sonra uğurla iş tapmasına şərait yaradır.

Ümumiləşdirib belə demək olar ki, BMU-nun uğuruna səbəb olan amillər çoxşaxəlidir. Qeyd edilən faktorların birlikdə təsiri, eyni zamanda, rəhbərliyin strateji yanaşması da bu uğura töhfə verib.

*- Reytinqdə mühüm kriteriyalardan biri əcnəbi tələbələrin cəlbidir. BMU-da əcnəbi tələbələrin sayı ilə bağlı nə deyərdiniz? Universitetin beynəlmiləlləşmə siyasəti necədir və bu faktor ali məktəbin reytinq göstəricisinə necə təsir göstərir?*

- Əcnəbi tələbələrin cəlbi ali təhsil müəssisələrinin beynəlxalq nüfuzunun mühüm indikatorlarından biri hesab olunur. “QS World University Rankings” sistemində bu amil “International Students Ratio” kriteriyası kimi qiymətləndirilir və universitetin beynəlmiləlləşmə səviyyəsinin ölçülməsində əsas parametrlərdən biri kimi çıxış edir. BMU-nun beynəlmiləlləşmə strategiyası son illərdə strukturlaşdırılmış, məqsədyönlü və analitik əsaslı yanaşmaya keçid edib. 2023-2024-cü illər ərzində universitetin əcnəbi tələbə kontingentində müşahidə olunan sürətli artım bu strategiyanın praktiki nəticəsidir. Son bir ildə BMU-da əcnəbi tələbələrin sayı 4 dəfəyə yaxın artıb. Mövcud dataya əsasən, hazırda BMU-da 28-dən çox ölkədən olan tələbələr müxtəlif ixtisaslar üzrə təhsil alır. Bu, yalnız coğrafi əhatəliliyin deyil, həm də universitetin qlobal cazibə gücünün göstəricisidir.

*- Mühüm amillərdən biri universitet alimlərinin elmi publikasiya aktivliyi ilə bağlıdır. Alimlərinizin publikasiya aktivliyi barədə nə deyərdiniz? Universitetdə bu sahədə hansısa stimullaşdırma tədbirləri görülürmü?*

- Elmi-tədqiqat və nəşr fəaliyyəti ali təhsil müəssisələrinin akademik reputasiyasının və beynəlxalq reytinq göstəricilərinin əsas müəyyənedicilərindən biridir. BMU-da son illərdə elmi-publikasiyaların sayı və keyfiyyəti üzrə müəyyən edilə bilən artım dinamikası müşahidə olunur. Universitetin akademik heyəti tərəfindən “Scopus” və “Web of Science” indeksli jurnallarda nəşr olunan məqalələrin sayı ilbəil artır, bu isə həm beynəlxalq səviyyədə tanınmanı, həm də istinad göstəricilərini yüksəldir.

Tədqiqat fəaliyyətinin stimullaşdırılması məqsədilə BMU-da elmi nəşrlərə görə maliyyə mükafatları, qrant müsabiqələri, tədqiqat metodologiyası üzrə təlimlər, plagiat və elmi redaktə dəstəyi, elmi fəaliyyətə əsaslanan diferensial əməkhaqqı sisteminin tətbiqi kimi təşviq mexanizmləri tətbiq olunur.

Bu tədbirlər universitetin tədqiqat mədəniyyətini gücləndirməklə yanaşı, qlobal elmi məkanla inteqrasiyasını da əhəmiyyətli dərəcədə sürətləndirir. BMU-nun elmi publikasiya siyasəti təkcə tədqiqat məhsuldarlığının artırılmasına yox, həm də keyfiyyətli, beynəlxalq səviyyədə tanınan tədqiqat ekosisteminin qurulmasına yönəlib. Bu isə universitetin elmə əsaslanan inkişaf modelini prioritetə çevirdiyini və beynəlxalq elmi məkanla daha güclü inteqrasiyasını təmin etdiyini göstərir.

*- Ümumiyyətlə, BMU-nun dünyanın fərqli reytinq tədqiqatlarında mövqeyi ilə bağlı nə deyərdiniz? Bu sahədə ali məktəbin hansısa hədəf konsepsiyası varmı?*

- Universitetimizin müxtəlif reytinq tədqiqatlarında mövqeyi, təsadüfi nəticələrin deyil, elmi əsaslandırılmış və strateji idarəolunan ali təhsil modelinin nəticəsidir. BMU-nun əsas missiyası ali təhsildə beynəlxalq akkreditasiya standartlarına uyğun yüksək səviyyəli mühəndislik təhsili təqdim etmək, fundamental və tətbiqi elmi-tədqiqat fəaliyyətlərini sistemləşdirmək və elmi biliklərin innovativ tətbiqlərlə sintezini təmin etməkdir. Universitet akademik mükəmməlliyin artırılması və qlobal təhsil-mühitinə inteqrasiya məqsədilə multidissiplinar yanaşmalar, müasir təhsil texnologiyaları və idarəetmə strategiyalarından istifadə edir. BMU, həmçinin beynəlxalq əməkdaşlıq çərçivəsində tədris və tədqiqat proseslərini gücləndirərək, yüksək ixtisaslı, elmi əsaslı qərar qəbul edən və sosial məsuliyyət daşıyan mütəxəssislərin yetişdirilməsini hədəfləyir.

*- BMU-da beynəlxalq ikili diplom proqramları həyata keçirilir. Əldə olunmuş nəticələr, yeni imkan və perspektivlər barədə nə deyərdiniz?*

- BMU 2020/2021-ci tədris ilindən Cənubi Koreyanın İNHA Universiteti ilə dörd ixtisas üzrə beynəlxalq ikili diplom proqramını uğurla həyata keçirir. Növbəti tədris ilindən Çin Xalq Respublikasının Pekin Kimya Texnologiyası Universiteti ilə əlavə üç ixtisas-“Kompüter mühəndisliyi” , “Mexanika mühəndisliyi” və “Kimya mühəndisliyi” üzrə ikili diplom proqramlarına başlanılır. Sözügedən proqramlar tələbələrə hər iki ali təhsil müəssisəsinin diplomunu əldə etməklə yanaşı, beynəlxalq təhsil mühitində təcrübə qazanmaq və qlobal əmək bazarında rəqabət qabiliyyətini artırmaq imkanı təqdim edir. İcra olunan proqramlar tələbələrin akademik və peşəkar bacarıqlarının inkişafına, eləcə də BMU-nun beynəlxalq akademik nüfuzunun möhkəmlənməsinə əhəmiyyətli töhfə verir. Gələcək perspektivlər çərçivəsində universitetin ikili diplom proqramlarının spektrini genişləndirərək, yeni ixtisas istiqamətlərini əhatə etməsi planlaşdırılır.

**Oruc MUSTAFAYEV**

# 25 ilin işığında

## Ulu Öndərin xeyir-duası ilə fəaliyyətə başlayan Naxçıvan Müəllimlər İnstitutunun tarixi yoluna baxış

**2025**-ci il Naxçıvan Müəllimlər İnstitutu üçün ən əlamətdar illərdən biridir. Bu il doğma institutumuzun fəaliyyətinin 25 ili tamam olur. 25 ildir ki, Ulu Öndər Heydər Əliyevin imzası ilə yaradılan bu elm ocağının şöləsi Azərbaycanın bütün bölgələrinə işıq saçır, minlərlə gəncin təhsil almasına, yüksəkixtisaslı kadr kimi yetişməsinə və təlim-tərbiyəsinə xidmət edir.

Naxçıvan Müəllimlər İnstitutunun məhz Ulu Öndər Heydər Əliyevin yadigarı olması bizi daha da qürurlandırır. Ölkəmiz üçün yüksək potensiala, müasir intellektə, təfəkkürə malik, rəqabətqabiliyyətli kadrlar, ixtisaslı müəllimlər hazırlayan bu ali təhsil müəssisəsinin əsası milli təhsilimizin böyük himayədarı Ümummilli Lider Heydər Əliyevin müvafiq fərmanı ilə 13 iyun 2000-ci ildə qoyulub. Nazirlər Kabinetinin 26 avqust 2003-cü il tarixli qərarı ilə müstəqil ali məktəb statusu alan institutumuz qısa zamanda böyük inkişaf yolu keçib, məzunları ilə ölkəmizin hər yerində tanınıb.

Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Müzəffər Ali Baş Komandan İlham Əliyevin təhsil sahəsinə göstərdiyi davamlı diqqət və qayğıdan Naxçıvan Müəllimlər İnstitutu da böyük pay alıb. Belə ki, yeni, tam təmir edilmiş müasir maddi-texniki baza ilə təchiz olunmuş institut binası 2018-ci ilin may ayında istifadəyə verilib. Çox xoşbəxtəm ki, institutumuzun yeni binasının açılış mərasimində mən də iştirak etmişəm. Açılış mərasimində dövlət başçımız institutun professor-müəllim heyəti ilə yaxından görüşüb, səmimi söhbət edib və özünün təbrik və tövsiyələrini çatdırıb: “İlk növbədə, sizi Müəllimlər İnstitutunun yeni binasının açılışı münasibətilə təbrik etmək istəyirəm. Gözəl binadır, çox gözəl şərait yaradılıb. Memarlıq baxımından da Naxçıvan şəhərini daha da gözəlləşdirir... Ulu Öndər Azərbaycan Prezidenti kimi həmişə Naxçıvana diqqət, qayğı göstərirdi. Naxçıvana tez-tez səfərlər edirdi... Mən də Ulu Öndərin siyasi xəttinə sadiq qalaraq bütün sahələrdə, o cümlədən Naxçıvana qayğı, diqqət məsələlərində o yolu davam etdirirəm”.



Naxçıvan Müəllimlər İnstitutu müvafiq səviyyələr üzrə ali təhsil proqramlarını həyata keçirən, pedaqoji-metodiki və tətbiqi elmi-tədqiqatlar aparan ali təhsil müəssisəsidir.

Qeyd edək ki, Naxçıvan Müəllimlər İnstitutunda fəlsəfə doktoru hazırlığı üzrə Dissertasiya Şurası yaradılıb. Dissertasiya Şurasında onlarla doktorant və dissertanta elmi-tədqiqatçılıq qabiliyyətlərini inkişaf etdirmək və təkmilləşdirmək üçün lazımi şərait yaradılıb, onlar öz dissertasiya işlərini müvəffəqiyyətlə müdafiə edərək müxtəlif elmi dərəcə və elmi adlara layiq görülüblər.

Naxçıvan Müəllimlər İnstitutunda bakalavriat və magistratura səviyyələri üzrə kadr hazırlığı aparılır. Bakalavriat səviyyəsində adları çəkilən ixtisaslar üzrə (Azərbaycan dili və ədəbiyyatı müəllimliyi, İbtidai sinif müəllimliyi, Tarix müəllimliyi, Məktəbəqədər təhsil, Xarici dil müəllimliyi (ingilis dili), Riyaziyyat və informatika müəllimliyi, Təsviri incəsənət müəllimliyi, Təhsildə sosial-psixoloji xidmət, Kitabxanaçılıq və informasiya fəaliyyəti, Korreksiyaedici təlim, Texnologiya müəllimliyi), magistratura səviyyəsində isə 4 ixtisas üzrə (Pedaqogika nəzəriyyəsi və tarixi, Təhsildə sosial-psixoloji xidmət, Riyaziyyat müəllimliyi, Təsviri incəsənət müəllimliyi) və ayrı-ayrı ixtisasların təhsil proqramları əsasında ali təhsilli mütəxəssislər, peşəkar müəllimlər, doktorantura təhsil səviyyəsində isə yüksəkixtisaslı elmi və elmi-pedaqoji kadrlar hazırlanır.

İnstitut olaraq əsas məqsədimiz dövlət standartlarına uyğun, zəruri biliyə, həyati bacarıqlara, intellektual, mədəni və mənəvi dəyərlərə malik olan, müxtəlif sahələr üzrə pedaqoji-metodiki və tətbiqi elmi-tədqiqatlar aparan ali təhsilin müxtəlif səviyyələri üzrə yüksəkixtisaslı mütəxəssislər, elmi-pedaqoji kadrlar hazırlamaqdan, Vətənini sevən, ölkəsinin, dövlətinin maraqlarını üstün tutan, xalqının adət-ənənələrinə, milli-mənəvi dəyərlərinə hörmətlə yanaşan vətənpərvər gənclər və ixtisaslı kadrlar yetişdirməkdən ibarətdir.

Mübaliğəsiz demək olar ki, son illərdə Naxçıvan Müəllimlər İnstitutu tədrisin keyfiyyətinə görə yeni inkişaf mərhələsinə qədəm qoyub. Bu, ali təhsil müəssisəsində daha çox həm maddi-texniki bazanın, həm tədrisin, həm sosial həyatın, həm də elmi fəaliyyətin inkişafında özünü göstərir. Bu gün professor-müəllim və tədrisə köməkçi heyətin gənc kadrlarla əvəzlənməsi nəticəsində institutun məzunları davamlı olaraq doğma təhsil ocağında işlə təmin olunur.

Xüsusi olaraq qeyd edilməlidir ki, ölkədə müəllim hazırlığı prosesinə diqqət artırılıb, müəllimlərin işə qəbulunda yeni sistem hazırlanıb, bu sistem qısa müddət ərzində özünü doğrulda bilib. Bunun nəticəsində məzunlarımız müəllimlərin işə qəbulu imtahanlarında fəal iştirak edib, yüksək nəticələr göstərərək respublikamızın müxtəlif rayon və kəndlərində işlə təmin olunublar.

Adlı təqaüdlərin təsis edilməsi, həmçinin tələbələrin digər həvəsləndirici tədbirlərə cəlb olunması təhsilalanlarda tədrisə olan marağı daha da artırır, onları ixtisaslarına uyğun mükəmməl təhsil almağa və mənimsədikləri bilik və bacarıqları möhkəmləndirməyə sövq edir.

İnstitutda tələbələrin maraq dairəsinə uyğun fəaliyyətlərin genişləndirilməsi, yaradıcılıq qabiliyyətlərinin və məlumat dairələrinin inkişaf etdirilməsi, onların sosial və digər problemlərinin həllinə dəstək və qayğının göstərilməsi, bir sözlə, səmimi təhsil mühitinin yaradılması gənclərimiz üçün institutu doğma, əziz məkan kimi cəlb, abituriyentləri buranı seçməyə, burada təhsil almağa, təhsilini davam etdirməyə təşviq edir.

Naxçıvan Müəllimlər İnstitutu həm xaricdə, həm də daxildə fəaliyyət göstərən qabaqcıl təhsil müəssisələri ilə daim əlaqələri genişləndirir. Xarici ölkələrin ali təhsil müəssisələri, təşkilatları ilə, beynəlxalq qurum və fondlarla əlaqə yaradılır, əməkdaşlıq haqqında müqavilələr bağlanılır, qarşılıqlı əməkdaşlıq həyata keçirilir.

Həmçinin institut əməkdaşları müxtəlif ixtisaslar üçün müxtəlif istiqamətlərə aid dərslik, dərs vəsaitləri, tədris və tədris-metodik ədəbiyyatlar hazırlayır və həm xarici, həm də daxili indeksli jurnallarada dərc etdirir.

İnstitutun “Elmi əsərlər” jurnalı Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının reyestrinə daxil edilib və beynəlxaq kodla ildə dörd dəfə nəşr olunur.

Hər tədris ilində təsdiq edilən iş planı və qrafik əsasında fəaliyyət istiqamətlərinə uyğun məsələlərlə bağlı elmi-praktik konfranslar (beynəlxalq və respublika), “Heydər Əliyev dərsləri”, müşavirələr, elmi-nəzəri seminarlar, müsabiqələr, bilik yarışları keçirilir, dinləyicilər Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyəti haqqında məlumatlandırılır. Ulu Öndərin irsində Vətən sevgisi, azərbaycançılıq məfkurəsi, dil, milli mədəniyyət sevgisi, milli-mənəvi dəyərlərə bağlılıq, xalqına, dövlətinə sonsuz sədaqət hissi mühüm yer tutur. Bu irsin qorunması və gələcək nəsillərə çatdırılması, hər bir gəncdə azərbaycançılıq hissinin formalaşdırılması ən vacib vəzifələrdən sayılır.

İkinci Qarabağ müharibəsi göstərdi ki, məktəblərimizdə təhsil alan gənc nəslin azərbaycançılıq ideologiyası əsasında tərbiyə edilməsi Azərbaycan müəllimlərinin və həmin müəllimləri hazırlayan ali təhsil müəssisələrinin fəaliyyətinin əsasını təşkil edir. Bu gün əminliklə deyə bilərik ki, Azərbaycan məktəbi, Azərbaycan müəllimi və onların yetişdirdiyi Azərbaycan gəncliyi bu imtahandan üzü ağ, alnı açıq çıxdı. Məhz bu məktəblərdə müəllimlərdən əxlaq, mənəviyyat, düşmənə nifrət dərsi alan, şəhidliyin fəlsəfi anlamını dərk edən gənclər öz qanları, canları bahasına təcavüzkarlara hədlərini bildirdilər, onları təslim aktını imzalamağa məcbur etdilər.

30 ildən artıq düşmən tapdağı altında inləyən torpaqlarımızın Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə işğaldan azad edilməsi şanlı tariximizin ən parlaq səhifəsinə çevrildi. Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi: “Mənim görüb başa çatdıra bilmədiyim işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaq”. Doğrudan da, Ulu Öndərin başa çatdıra bilmədiyi, arzusunda olduğu işləri cənab Prezident layiqincə yerinə yetirdi. Müzəffər Ali Baş Komandan İlham Əliyev öz siyasi gücü, məntiqi düşüncəsi, milli iradəsi hesabına xalqımızın dəstəyi və yenilməz ordumuzun rəşadəti və şücaəti sayəsində Azərbaycanın ərazi bütövlüyünü təmin etdi, torpaqlarımızı düşmən işğalından azad etdi. Bu tarixi qələbə cənab Prezidentin daxili və xarici siyasətinin məntiqi nəticəsi idi. 44 gün ərzində rəşadətli Silahlı Qüvvələrimiz Ali Baş Komandanın rəhbərliyi ilə Ermənistan ordusunu darmadağın edərək tarixə şanlı Zəfər salnaməsi yazdı.

Vətən müharibəsində misilsiz qəhrəmanlıq göstərən, adlarını qızıl hərflərlə tarixə yazan əsgər və zabitlərimiz sırasında Naxçıvan Müəllimlər İnstitutunun tələbə və məzunları da var. 44 günlük savaşda torpaqlarımızın mənfur düşməndən azad olunmasında canlarından keçmiş, şəhidlik zirvəsinə yüksələn qəhrəman oğullardan 2 nəfəri - Kamran Hüseynov və Ruhid İslamlı məhz Naxçıvan Müəllimlər İnstitutunun məzunudur.

İnstitut əməkdaşlarının səmərəli fəaliyyəti dövlətimiz tərəfindən daim yüksək qiymətləndirilib.

Bir sözlə, institutumuz dövlətimizin ali təhsil müəssisələri qarşısında qoyduğu vəzifələri və özünün qəbul etdiyi bütün öhdəlikləri layiqincə yerinə yetirir.

Bu bir həqiqətdir ki, Ulu Öndər Heydər Əliyevin müdrik siyasəti sayəsində bu gün Azərbaycan hərtərəfli inkişaf, tərəqqi edir. Nə qədər ki Ulu Öndər Heydər Əliyevin memarı olduğu müasir, müstəqil, bütöv Azərbaycan vardır, Zəfər çalmış Müzəffər xalqımız daha böyük uğurlara şahidlik edəcək.

**Samirə HƏSƏNOVA,**
*Naxçıvan Müəllimlər İnstitutunun Pedaqoji fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Orta ixtisas təhsilində yeni paradiqmalar

Müasir dövrdə orta ixtisas təhsili müəssisələrinin idarə edilməsi ölkələrin təhsil siyasətində prioritet istiqamətlərdən birinə çevrilib. Cəmiyyətin dinamik inkişafı, texnoloji yeniliklərin sürətlə təhsilə inteqrasiyası, əmək bazarının dəyişən tələbləri və qloballaşma prosesi bu sahədə idarəetmə sisteminin yenidən qurulmasını zəruri edir. İdarəetmədə çeviklik, şəffaflıq və nəticəyönümlülük prinsiplərinə əsaslanan yanaşmalar təhsil müəssisələrinin rəqabətqabiliyyətli kadrlar hazırlamaq funksiyasının səmərəliliyini artırır.

Müasir müstəvidə kolleclərin qarşısında duran əsas vəzifə yalnız nəzəri biliklərə malik kadrlar deyil, real əmək bazarına adekvat, tətbiqi və səriştə əsaslı bacarıqlara malik rəqabətədavamlı mütəxəssislər yetişdirməkdir. Fikrimcə, dəyişiklik həm idarəetmə, həm məzmun, həm də infrastruktur səviyyəsində həyata keçirilərsə, müsbət nəticələr verə bilər.

Elektron idarəetmə platformalarının tətbiqi, strateji planlaşdırma və nəticəyönümlü qərarların verilməsi, eləcə də, rəhbər heyətin təhsil menecmenti sahəsində peşəkarlığının artırılması mühüm əhəmiyyət kəsb edir. Araşdırmalar göstərir ki, uğurlu idarəetmə modeli həm təhsilin keyfiyyətini artırır, həm də onun iqtisadi dayanıqlığını təmin edir.



Təhsil müəssisələrinin idarə edilməsində süni intellekt texnologiyalarının (məsələn, Bulud əsaslı idarəetmə sistemlərinin, Big data analizinin və s.) tətbiqinin azlığı idarəetmənin müasirliyi baxımından müəyyən məhdudiyyətlər yaradır.

Rəqəmsal texnologiyaların idarəetmə praktikasına inteqrasiyası təkcə texniki yenilənməni deyil, həm də strateji düşüncə tərzinin dəyişilməsini tələb edir. Bu anlamda xarici ölkələrin idarəetmə proseslərinin elektron platformalar üzərindən həyata keçirilməsi kimi müsbət təcrübələri var. Bu cür təcrübələr idarəetmədə çevik qərarların qəbuluna şərait yaradır.

Ölkəmizdə də bu mənada bir sıra novator təcrübələr mövcuddur. Məsələn, əksər peşə və texniki təhsil müəssisələrində dual təhsil modelinə keçid, dövlət və özəl sektor əməkdaşlığı çərçivəsində qurulan müəssisədaxili təcrübə bazaları, sənaye partnyorları ilə birgə hazırlanan tədris proqramları və s. idarəetmədə əmək bazarının tələblərinə uyğunlaşmanın gücləndirilməsi baxımından müsbət addımlardandır və bu sahədə effektivliyi artırır.

Deməli, idarəetmədə innovativ və beynəlxalq standartlara uyğun mexanizmlərin geniş tətbiqi üçün milli səviyyədə vahid strateji çərçivənin formalaşdırılması zəruridir.

Bununla yanaşı, təhsilin idarə edilməsində performansa əsaslanan maliyyələşmə modellərinin tətbiqi, təhsil müəssisələrinin büdcə müstəqilliyinin artırılması, nəticələrə əsaslanan hesabatlılıq mexanizmlərinin qurulması idarəetmənin optimallaşdırılması baxımından vacib komponentlərdəndir.

Habelə, idarəetmə kadrlarının fasiləsiz ixtisasartırma təlimlərinə cəlb edilməsi, onların liderlik bacarıqlarının inkişaf etdirilməsi və təhsil menecmenti üzrə müasir elmi yanaşmaların tətbiqi yolu ilə də idarəetmənin keyfiyyəti yüksəldilə bilər. Kanada və Sinqapur təcrübəsində olduğu kimi, idarəetmə və pedaqoji heyət arasında koordinasiyanı gücləndirən "təhsil liderliyi məktəbləri"nin yaradılması həm təhsil prosesində innovasiyaların tətbiqinə, həm də qərarvermə proseslərinin optimallaşdırılmasına imkan verir.

Ümumilikdə götürüldükdə, orta ixtisas təhsili müəssisələrinin idarə edilməsinin modernləşdirilməsi strateji baxımdan yalnız təhsil sisteminin səmərəliliyini deyil, həm də milli iqtisadiyyatın insan resursları potensialını formalaşdırmaqla sosial rifahın artırılmasına xidmət edir. Bu istiqamətdə aparılan islahatlar, yerli və beynəlxalq səviyyədə həyata keçirilən uğurlu layihələrin təhlili və tətbiqi, elmi araşdırma və tədqiqatların nəticələrinin praktikaya yönləndirilməsi idarəetmədə davamlı inkişafa şərait yaradır.

Bu yaxınlarda Elm və Ali Təhsil üzrə Dövlət Agentliyinin direktoru Ülkər Səttarova ASAN TV-də yayımlanan verilişdə çıxışı zamanı “Kolleclərin fəaliyyətində sistem dəyişikliyi zəruridir”, - deyə fikir bildirib. Onun bu fikri orta ixtisas təhsili müəssisələrinin mövcud vəziyyətinin köklü şəkildə yenidən nəzərdən keçirilməsini, daha çevik, nəticəyönümlü və əmək bazarının tələblərinə uyğun fəaliyyət modelinə keçidin zəruriliyini vurğulayır. Digər tərəfdən, mövcud qanunvericilik çərçivəsində də orta ixtisas təhsili müəssisələrində sistem dəyişikliyi aparmaq üçün bir sıra hüquqi və institusional mexanizmlər mövcuddur.

Digər tərəfdən, təhsil proqramlarının əmək bazarının real tələblərinə daha da uyğunlaşdırılması fikrimcə, əsas islahat istiqamətlərindən biri kimi mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan modul əsaslı və çevik proqramların hazırlanması, yeni kurikulumların sənaye tərəfdaşları ilə birlikdə formalaşdırılması və praktik bacarıqlara əsaslanan dual təhsil modellərinin tətbiqi təklifyönümlüdür. Həmçinin, işəgötürənlərlə sıx əməkdaşlıq da təhsilalanların hazırlıq səviyyəsini və məşğulluq imkanlarını əhəmiyyətli dərəcədə artırır.

Sözügedən istiqamətdə dəyişiklik pedaqoji heyətin peşəkar inkişafını da əhatə etməsini zəruri edir. Təcrübəmə dayanaraq, qeyd edə bilərəm ki, müəllimlərin müasir tədris metodlarına yiyələnməsi, yeni texnologiyaların tətbiqinə adekvat olması və müvafiq sahə üzrə davamlı istehsalat təcrübəsi qazanması və s. onların tədris prosesində öyrətdiyi biliklərin aktuallığını təmin edir.

Bu məqsədlə müəllimlər üçün fasiləsiz ixtisasartırma proqramlarının təşkili, beynəlxalq təcrübə mübadilələrinin aparılması və sənaye təcrübələrinin tətbiqi mühüm rol oynayır. Çünki müəllimlərin peşəkar inkişafı təhsil və tədris prosesinin keyfiyyətində əsas amillərdəndir.

Orta ixtisas təhsili müəssisələrinin fəaliyyətində digər vacib sistem dəyişikliyi infrastruktur və rəqəmsal təchizatla bağlı məsələləri də önə çəkir. Bu baxımdan ixtisasların təhsil proqramlarına əsasən, müasir laboratoriyaların, simulyasiya otaqlarının və texniki bazası gücləndirilmiş emalatxanaların yaradılması, tədris prosesinə rəqəmsal resursların, onlayn platformaların və elektron təlim materiallarının inteqrasiya edilməsi təklifyönümlüdür. Sadaladığımız təkliflər tədrisin interaktivliyini artıraraq tələbələrin motivasiyasını yüksəldə və praktiki bacarıqlarının daha effektiv formalaşmasına şərait yarada bilər.

İdarəetmədə sistem dəyişikliyi həmçinin maliyyə modellərinin də yenidən qurulmasını zəruri edir. Kolleclərin maliyyələşdirilməsində dövlət və özəl tərəfdaşlığının gücləndirilməsi, performansa əsaslanan büdcələşdirmə və alternativ maliyyə mənbələrinin (qrantlar, sifarişli təlimlər, layihələr və s.) tətbiqi bu sahədə effektivliyi artıra bilər. Bu isə gələcəkdə kolleclərdə daha çevik və innovativ fəaliyyət imkanlarının yaradılmasına təkan verəcəkdir.

Beynəlxalq əməkdaşlıq və keyfiyyətin qiymətləndirilməsi mexanizmlərinin tətbiqi də sistem dəyişikliyinin əsas komponentlərindəndir. Kolleclər xarici təhsil qurumları ilə beynəlxalq təcrübə mübadilələri və imkanları yaradaraq, məzunlarının həm yerli, həm də qlobal səviyyədə rəqabət qabiliyyətini artıra bilərlər.

Nəticə etibarilə, orta ixtisas təhsili müəssisələrinin fəaliyyətində sistem dəyişikliyi kompleks yanaşma tələb edən bir prosesdir və bu dəyişikliklər yalnız formal struktur dəyişmələri ilə məhdudlaşmamalı, təhsil prosesinin bütün iştirakçılarını (təhsil müəssisə rəhbərliyini, müəllimləri, tələbələri və sosial partnyorları) əhatə etməlidir. Bu dəyişikliklərin tədricən həyata keçirilməsi isə kolleclərin cəmiyyətin və iqtisadiyyatın inkişafına real töhfə verən dayanıqlı və çevik təhsil müəssisələrinə çevrilməsinə, habelə, orta ixtisas təhsilinə ümumi ictimai münasibətin dəyişilməsinə yol açacıqdır.

**Simuzər QAFAROVA,**
*ADPU-nun nəzdində Azərbaycan Dövlət Pedaqoji Kollecinin metodisti*




# Gimnast, rəssam, üzgüçü

## Kiçik addımların böyük izləri

Elə uşaqlar var ki, çevik zəkası, tükənməz enerjisi ilə erkən yaşlarından ətrafdakıların diqqətini çəkməyi bacarırlar. İstedadı, çalışqanlığı və öyrənməyə sonsuz həvəsi ilə seçilən bu uşaqlar gələcəyin uğurlu insanlarına çevriləcəyini elə ilk andan hiss etdirirlər. Nilufər də məhz belə balacalarımızdandır. Onun hekayəsi bizə göstərir ki, məqsədli şəkildə, əzmkarlıq və sevgi ilə çalışanlar üçün heç bir uğur təsadüfi deyil.

Nilufər Sərdarova Bakı şəhəri 263 nömrəli tam orta məktəbin 2-ci sinif şagirdidir. O, artıq kiçik yaşlarından fərqli dilləri öyrənməyə maraq göstərir, bu maraq isə onun dünyaya baxışını daha da genişləndirir. Lakin Nilufərin təkcə akademik maraqları deyil, idman və yaradıcılıq sahəsində də uğurları var.

2024-cü il Nilufərin idmanda ilk ciddi uğurunu qeyd etdiyi tarix olub. O, “Açıq şəhər birinciliyi üzrə” keçirilən üzgüçülük yarışında sərbəst üsul üzrə layiqli mübarizə apararaq 2-ci yerin sahibi olub. Bu nəticə təkcə onun güc və texnikasının deyil, eyni zamanda iradəsinin və əzmkarlığının göstəricisidir.

Bu il isə onun yaradıcılıq və incəsənət sahəsində özünü göstərdiyi il kimi yadda qalıb. Nilufər 8 Mart - Beynəlxalq Qadınlar Gününə həsr olunmuş rəsm müsabiqəsində rənglərin dili ilə duyğularını ifadə edərək 1-ci yerin qalibi olub. Bu qalibiyyət onun estetik zövqünün və incə dünyagörüşünün parlaq sübutudur.

Nilufərin nailiyyətləri bununla da bitmir. O, bu ilin 22 iyununda keçirilən “Yay kuboku”na həsr olunmuş gimnastika üzrə açıq çempionatında yenidən özünü sınayıb və yüksək nəticə göstərərək 2-ci yerə layiq görülüb.

Böyük arzular və məqsədyönlü zəhmət kiçik yaşdan insanı irəli aparır. Nilufərin hekayəsi də bunun canlı sübutudur.

Hələ qarşıda onu gözləyən fəth edəcəyi çoxlu zirvələr, qalib olacağı neçə-neçə yarışlar, medal kolleksiyasına əlavə edəcəyi uğurlar var. O, indidən böyük həvəs və inamla, addım-addım öz uğur yoluna işıq salır.




Qaliblər də məhz uğur, iradə və zəhmətin birləşdiyi yerdə doğulurlar.

Amma bu, hələ başlanğıcdır...

**“Azərbaycan müəllimi”**

Elm və Təhsil Nazirliyinin mətbu orqanı olan “Peşə təhsili və insan kapitalı” elmi-praktik metodiki jurnalının 2-ci nömrəsi çapdan çıxıb. Jurnalın bu nömrəsində də bir-birindən maraq doğuran elmi məqalələr yer alıb. Pedaqogika bölməsində - Azərbaycan Kooperasiya Universitetinin Elm və innovasiyalar üzrə prorektoru, Əməkdar elm xadimi, iqtisad elmləri doktoru, professor Bəyalı Ataşovun “Azərbaycan universitetlərində elmi fəaliyyətin inkişafına dair dövlət siyasətinin yeni prioriteti” sərlövhəli elmi məqaləsində müəllif Azərbaycanın elm sahəsində dövlət siyasətinin yeni prioriteti çərçivəsində müasir çağırışlar və öndə olan məqsədlərin öyrənilməsi, həmçinin dünya təcrübəsi kontekstində ölkə universitetlərində elmi fəaliyyətlə bağlı problemlərin aşkar həll edilməsi istiqamətində təkliflərin irəli sürülməsini əsas məqsəd kimi göstərib.

# Jurnalın oxucularla növbəti görüşü

İqtisadiyyat bölməsində - Naxçıvan Dövlət Universitetinin İqtisadiyyat və marketinq kafedrasının müəllimi Nihat Mehbalıyevin “İnnovativ sosial-iqtisadi inkişafın Naxçıvan Muxtar Respublikasında tətbiq istiqamətləri” adlı məqaləsi yer alıb. Müəllif məqalədə öncə NMR-nin sosial-iqtisadi inkişafından söz açıb, sonra isə muxtar respublikada iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi ilə bağlı həyata keçirilən tədbirlərdə innovasiyaların tətbiqinin təsir mexanizmini ortaya qoyaraq təhlil edib.

Gəncə Dövlət Universitetinin İdarəetmə kafedrasının müəllimi, doktorant Könül Quliyevanın “Elm tutumlu istehsalın yaşıl iqtisadiyyatda rolu” başlıqlı məqaləsi də bu bölmədə verilib. Müəllif qeyd edib ki, yaşıl iqtisadiyyat ölkənin iqtisadi inkişafı ilə yanaşı, istehsalatda tətbiq edilən elmi-texniki tərəqqinin köməyi ilə ekoloji və sosial problemlərə həllyönümlü yanaşmasıdır. Yaxın gələcəkdə tükənməsi proqnozlaşdırılan enerji mənbələrinin bərpa olunan enerji ilə əvəzlənməsi, qida və içməli su çatışmazlığı, əhalinin sosial rifahının yaxşılaşdırılması kimi məsələlər təklikdə bir ölkənin deyil, ümumdünya problemidir. Burada bütün ölkələr yaşıl iqtisadiyyata inteqrasiyada maraqlıdır və s. kimi həlli vacib bir sıra fartorlardan bəhs edilib.

Metodika bolməsində Təhsil İnstitutunun Təhsildə məzmun kurikulum və standartlar mərkəzinin Peşə və ömürboyu təhsilin proqramları şöbəsinin baş mütəxəssisi, BƏT-in Azərbaycandakı daimi eksperti, kurikulum üzrə ekspert Leyla Bahabova “Montessori təhsilinin prinsip və yanaşmasının peşə təmayül təhsilində faydaları” başlığı altında yazdığı məqaləsində “Montessori təhsil” anlayışını əhatəli təhlilini verib. Montessori sisteminin əsas prinsipləri, müsbət və mənfi tərəfləri, bu sistemin digərlərindən fərqli cəhəti nədir, eləcə də sistemin peşə təmayül təhsilində tətbiqi və bu sistem kimlər üçün uyğundur və s. kimi maraqlı məqamlara toxunub.

Bakı Dövlət Universitetinin müəllimi Nərminə Mirzəliyeva “Yeniyetmələrdə ailə dəyərlərinin formallaşdırılması: müasir yanaşmalar və metodlar” adlı məqaləsində yeniyetmələrə ailə dəyərlərinin aşılanmasında müasir yanaşmaların və metodların əhəmiyyətini araşdırıb, ailə yeniyetmələrin sosial və psixoloji inkişafında mühüm təsirə malik əsas amillərdən biri olmaqla yanaşı, həm də digər sosial mühitlər, o cümlədən məktəblər və cəmiyyətin digər standartlarının da bu prosesə daxil olmasını qeyd edib.

Texnika bölməsində Azərbaycan Texniki Universitetinin doktorantı Nuru Daşdəmirlinin “Enerji istehlakına ağıllı nəzarət sistemi: əşyaların interneti və mikrokontroller əsaslı həll” sərlövhəli məqaləsi də yer alıb. Müəllif məqaləsində enerji istehlakının real zamanlı monitorinqini təmin etmək üçün mikrokontroller əsaslı ağıllı cihazın və “Əşyaların interneti” şəbəkəsi ilə işləyən sistemin hazırlanması haqqında məlumat verib.

Adlarını qeyd etmədiyim digər məqalələrlə tanış olmağı isə oxucularımızın ixtiyarına buraxıram.

**Vüqar SƏLİMOVA,**
*“Peşə təhsili və insan kapitalı” jurnalının şöbə redaktoru*

# “Altmışıncılar nəsrinin poetikası”




Bakı Dövlət Universitetinin Milli mətbuat tarixi kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Cahangir Məmmədlinin yenicə çapdan çıxmış “Altmışıncılar nəsrinin poetikası” kitabı Azərbaycan ədəbiyyatında mühüm bir mərhələnin - 1960-1990-cı illər dövrünün bədii nəsrinin, xüsusilə də povest janrının elmi-nəzəri baxımdan dərin təhlilinə həsr olunmuş əhəmiyyətli tədqiqat əsəridir. Tədqiqat əsəri dörd fəsildən ibarətdir. Həmin fəsillərin hər birində altmışıncıların yaradıcılığı, xüsusilə povest yaradıcılığı geniş və müxtəlif aspektlərdən tədqiq olunub.

BDU-da adı qeyd olunan kafedranın elmlər doktoru proqramı üzrə doktorantı olduğumdan bu kitabı böyük həvəslə oxumuşam. Müəllif monoqrafiyada “altmışıncılar” kimi tanınan ədəbi nəslin yaranmasını, inkişaf yollarını, bədii-estetik prinsiplərini və Azərbaycan nəsrinə gətirdikləri yenilikləri sistemli şəkildə araşdırır və “altmışıncılar” anlayışını dövrün ictimai, mədəni və estetik reallıqları kontekstində verir.

Professor Cahangir Məmmədli yazdığı kitabda ədəbi-tarixi və poetik analiz metodlarından istifadə edərək, dövrün povestlərini yüksək səviyyədə sosial-mədəni kontekstdə təhlilini verib.

Qeyd etməliyik ki, professorun bu əsəri yalnız ədəbi tənqid və elmi araşdırma üçün deyil, həm də Azərbaycan ədəbiyyatını öyrənən tələbə və müəllimlər üçün qiymətli bir mənbədir.

Nəfis tərtibatlı bu kitaba AMEA-nın müxbir üzvü Təhsin Mütəllibov və dosent Ələmdar Cabbarlı rəy veriblər. Akademik Nizami Cəfərov isə kitaba yazdığı “Ön söz”də qeyd edib ki, monoqrafiyanın indiki variantı bir sıra yeniliklərlə zənginləşdirilib və bu məqamda professor Cahangir Məmmədli “altmışıncılar” adlandırılan yazıçıların yaradıcılığına daha çox diqqət yetirib. İnanıram ki, monoqrafiyada müəllifin müstəqil mühakimələri, sərbəst təhlilləri, nəsrimizə, xüsusilə povest yaradıcılığına verdiyi qiymətləri, gəldiyi ümumi elmi-nəzəri nəticə ayrıca maraq doğuracaq. Əvvəlki kitabları və onlarla məqalələrində olduğu kimi, C.Məmmədli bu əsərini də ədəbiyyata məhəbbətlə, söz sənətinə inam və hörmətlə qələmə alıb.

Qeyd edək ki, Cahangir müəllim müsahibələrinin birində demişdir: “Ədəbiyyat mənə yazı üslubu, jurnalistika isə faktların dəqiq və obyektiv təqdim olunmasını öyrətdi”. Bəli, bu, onun ədəbiyyata verdiyi dəyərin, qiymətin və həm də tədqiqatçı kimi ədəbiyyata münasibətinin ən bariz nümunəsidir desək, yanılmarıq.

Ümidvaram ki, belə bir dəyərli nəşr təkcə mənim yox, xüsusilə ədəbiyyatı sevən hər kəsin stolüstü kitabı olacaq.

**Şakir CƏFƏROV,**
*filologiya üzrə fəlsəfə doktoru*

“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” Qapalı Səhmdar Cəmiyyəti

# “Azərbaycan Dövlət Dəniz Akademiyası” Publik Hüquqi Şəxsi

kafedralar üzrə aşağıda qeyd olunan fənlərin tədrisi üçün vakant vəzifələrin tutulması məqsədilə müsabiqə

**ELAN EDİR:**

**“Dəniz naviqasiyası kafedrası” üzrə**

“Dəniz naviqasiyası (Trenajor)” (tədris dili: ingilis) - 1 ştat 1 yer və ya saathesabı;
“Səfərin naviqasiya planlaşdırılması (Trenajor)” (tədris dili: ingilis) - 1 ştat 1 yer və ya saathesabı;
“Dənizçilik astronomiyası” (tədris dili: ingilis) - 1 ştat 1 yer və ya saathesabı;
“Elektron xəritə displeyinin və informasiya sistemlərinin istismar qaydaları (Trenajor)” (tədris dili: ingilis) - 1 ştat 1 yer və ya saathesabı.

Tələb: Müvafiq ixtisas üzrə iş təcrübəsi.

**“Gəmi energetik qurğuları kafedrası” üzrə**

“Gəmi energetik qurğularının texniki istismarı” və “Gəmi köməkçi mexanizmləri, sistemləri və onların istismarı” (tədris dili: Azərbaycan, rus və ingilis) - 1 ştat 1 yer.

Tələb: Gəmidə ikinci və ya baş mexanik vəzifəsində ən azı 5 il iş təcrübəsi.

**“Tətbiqi mexanika” kafedrası üzrə**

“Texniki mexanika” (tədris dili: Azərbaycan və ingilis) - 0,5 ştat 2 yer;
“İnşaat mexanikası və gəminin möhkəmliyi” - 0,5 ştat 1 yer;
“İnformatika və kompüter proqramları” (tədris dili: Azərbaycan və ingilis) - 0,5 ştat 2 yer;
“Kimya” - 0,5 ştat 1 yer.

Tələb: Müvafiq ixtisas üzrə elmi dərəcə və elmi ad.

*Sənədlərin qəbulu üçün son tarix: 4 avqust 2025-ci il.*

**Tələb olunan sənədlər**

- Şəxsiyyət vəsiqəsinin surəti;
- Kadrlar uçotunun şəxsi vərəqəsi;
- Tərcümeyi-hal;
- Ali təhsil, elmi dərəcə və elmi ad haqqında sənədlərin surətləri;
- Elmi və elmi-metodiki işlərin siyahısı.

**Ünvan:** *Bakı şəhəri, Zərifə Əliyeva küçəsi, 18.*
**Əlaqə telefonu:** 404-37-00 (daxili 3220).

**REKTORLUQ**

# “Azərbaycan məktəbi”nin növbəti sayında




Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin “Azərbaycan məktəbi” jurnalının 2025-ci il üçün ikinci (ümumilikdə 711-ci) sayı işıq üzü görüb.

Baş redaktor Arzu Soltanın oxuculara ünvanladığı müraciətdə qeyd olunub ki, “Azərbaycan məktəbi” jurnalı təhsilin bütün pillə və səviyyələrini əhatə edir və məqsədi Azərbaycanın daim yenilənən, inkişaf edən, müasir dünya ilə ayaqlaşan təhsilinə töhfə verməkdir. Baş redaktor müəllif və oxucu auditoriyasının bu məqsədlə həmrəylik nümayiş etdirdiyini vurğulayaraq hər kəsi təhsil prosesində fəal iştirak etməyə çağırıb.

Azərbaycan Respublikası Təhsil İnstitutunun təşkilati dəstəyi ilə işıq üzü görən jurnalın bu sayında Leyla Sultanlı, Nərmin Xalıqova, Aysel Əsədova, Hümeyir Əhmədov, Yaqub Babayev, Arif Əsədov, Dilarə Rəfi, Aysel Fətəliyeva, Sahib Süleymanov, Nuriyyə Əliyeva, Səadət Əsədova və Günel Hüseynovanın müəllifi olduqları müxtəlif aktual məqalələr dərc olunub.

**“AZƏRBAYCAN MÜƏLLİMİ”**

**Qəzet 1934-cü ildən çıxır**

**Baş redaktor**
Sarvan İbrahimov

**Reklam və elanlar** 539-20-77; elan@media.edu.az

**Ünvan:** AZ-1073/2, Bakı şəhəri, Nərimanov rayonu, Fətəli xan Xoyski, 109

Qəzet “Azərbaycan müəllimi”nin kompüter mərkəzində yığılır və “Azərbaycan nəşriyyatı” MMC-də çap olunur

Qəzet hər həftənin şənbə günü çıxır

**Bank hesabımız**
Azərbaycan Beynəlxalq Bankı Şərifzadə filialı
Kodu: 805142 VÖEN: 9900001881
M/h: AZ 03 NABZ 01350100000000002944
S.W.I.F.T.: IBAZAZ 2X

“Azərbaycan müəllimi” qəzeti redaksiyası
Hesab № AZ80 IBAZ38060019443164986350
VÖEN: 1300397831

**Lisenziya** № 022327, **İndeks:** 0003,

**Tiraj** 11383 **Sifariş** 1401

**Məsul növbətçi:** S.Kərimova



# Etibarsız sayılır



**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2002-ci ildə Həsənova Mətanət Hüseyn qızına verilmiş A-102434 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şamaxı rayon** Çuxuryurd kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş İsmayılzadə Heydər Aydın oğluna verilmiş E-524172 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 16 nömrəli tam orta məktəbi 2020-ci ildə bitirmiş Şabanova Ülkər Rauf qızına verilmiş E-343708 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar rayon** Dərvişli kənd tam orta ümumtəhsil məktəbi 2023-cü ildə bitirmiş Əlizadə Adil Elşən oğluna verilmiş E-588291 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Masallı rayon** Rudəkənar kənd tam orta məktəbi 1998-ci ildə bitirmiş Salayev Veysəl Ağalı oğluna verilmiş A-234324 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı Dövlət İqtisadiyyat Universitetinin nəzdində İqtisadiyyat Kolleci** (Bakı Plan Uçot Texnikumu) tərəfindən 1978-ci ildə Əmirli Sakit Muxtar oğluna verilmiş Ш-034207 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Zərdab rayon** Birinci Alıcanlı kənd tam orta ümumtəhsil məktəbi 1994-cü ildə bitirmiş Ağayeva (Əsədova) Gülşən İnqilab qızına verilmiş A-154961 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 249 nömrəli tam orta məktəbi 2024-cü ildə bitirmiş Quliyeva Ləman Sahil qızına verilmiş E-669123 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbi 2012-ci ildə bitirmiş Sarixani-Xürrəmi Samirə Badullah qızına verilmiş A-126286 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**ADNSU-nun nəzdində Sənaye və Texnologiya Kolleci** tərəfindən 2020-ci ildə Abdurzayev Cavad Qəzəhməd oğluna verilmiş AA-136274 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Sumqayıt şəhər** 1 nömrəli tam orta məktəbin IX sinfini 2006-cı ildə bitirmiş Məsimli (Əhmədova) Günel Yaşar qızına verilmiş A-310558 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 263 nömrəli tam orta məktəbi 1988-ci ildə bitirmiş Bəşirov Samir Əhməd oğluna verilmiş AK-464024 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət İqtisad Universiteti** tərəfindən 2022-ci ildə Əliyev Əli Yaşar oğluna verilmiş C-137160 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Verdiyeva Rəqsanə Yuriy qızına verilmiş 114444 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 1 nömrəli məktəb-liseyi 2024-cü ildə bitirmiş İbadlı Elmar Eldar oğluna verilmiş E-726737 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 1 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Dadaşov İbrahim Nəriman oğluna verilmiş E-034242 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Texniki Universiteti** tərəfindən 2017-ci ildə Əliyev Maqsud Sehriman oğluna verilmiş A-131942 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Şiştəpə kənd tam orta ümumtəhsil məktəbin IX sinfini 2011-ci ildə bitirmiş Nağıyev Əli Ədalət (əvvəlki Əliyev Valeh Ədalət oğlu) oğluna verilmiş A-065622 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəmkir şəhər** Q.Mirzəməmmədov adına (Şamxor şəhər Sərxan orta məktəb) tam orta ümumtəhsil məktəbin VIII sinfini 1993-cü ildə bitirmiş Həsənov Azər Cavanşir oğluna verilmiş 472864 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 20 nömrəli tam orta məktəbi 1991-ci ildə bitirmiş Qaffarova (Baxışova) Vəfa Nüsrət qızına verilmiş A-121428 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 88 nömrəli tam orta məktəbi 2011-ci ildə bitirmiş İslamzadə Fəridə Vidadi qızına verilmiş A-095969 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bərdə rayon** Xəsili kənd tam orta məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Fərəcov Səbuhi İbrahim oğluna verilmiş B-019158 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli ümumi təyinatlı internat tipli ümumtəhsil məktəbin** IX sinfini 2006-cı ildə bitirmiş Rzayev Ağamusa Viktoroviçə verilmiş A-391293 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Cəlilabad şəhər** 7 nömrəli tam orta ümumtəhsil məktəbin IX sinfini 2014-cü ildə bitirmiş Şahbazova (Tapdıqzadə) Aytac Mahir qızına verilmiş 390898 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Memarlıq və İnşaat Universiteti nəzdində İnşaat Kolleci** tərəfindən 2014-cü ildə Xudaverdiyeva Mehriban Azər qızına verilmiş AA-052928 nömrəli subbakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran Pedaqoji Texnikumu** tərəfindən 1988-ci ildə Məmmədova (Əhmədova) Kamilə Fərhad qızına verilmiş ET-016976 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Neft və Sənaye Universiteti** tərəfindən 2022-ci ildə Abdullayev Sabir Oqtay oğluna verilmiş C-141865 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 3 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Qədirli (Səbzəliyeva) Cəmilə Əsəd qızına verilmiş B-696392 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Lənkəran rayon** Şağlaküçə kənd tam orta məktəbi 1990-cı ildə bitirmiş Şükürova (Nurullayeva) Saçlı Nurulla qızına verilmiş A-047000 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Kəlbəcər rayon** 84 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Musalı Bəhruz Zahid oğluna verilmiş B-214261 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Quba şəhər** 5 nömrəli tam orta məktəbi 2017-ci ildə bitirmiş Əliyev Ayhan Mehmət oğluna verilmiş E-033612 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Çaylı kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 2006-cı ildə bitirmiş Nağıyev Firuz Vəli oğluna verilmiş B-326103 nömrəli tam orta təhsil haqqında attestat itiyi üçün etibarsız sayılır.

**Ordubad rayon** Vənənd kənd tam orta məktəbi 1985-ci ildə bitirmiş Məmmədov Mahir Yavər oğluna verilmiş AK-144046 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Oğuz rayon** Kərimli kənd tam orta ümumtəhsil məktəbi 1989-cu ildə bitirmiş Şükürov Cahangir Ziyafət oğluna verilmiş 550271 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Aşağı Küngüt kənd tam orta məktəbi 1994-cü ildə bitirmiş Səmədov İlkin Rəşid oğluna verilmiş 1462 nömrəli tam orta təhsil haqqında attestat əvəzi arayış itdiyi üçün etibarsız sayılır.

**Gəncə şəhər** 31 nömrəli tam orta məktəbi 2025-ci ildə bitirmiş Kərimli Murad Fazil oğluna verilmiş E-845001 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki rayon** Kiçik Dəfnə kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbi 1987-ci ildə bitirmiş Xalıqov Elxan Bayram oğluna verilmiş A-285183 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 4 nömrəli tam orta ümumtəhsil məktəbi 2015-ci ildə bitirmiş Qurbanzadə Aybəniz Təyyar qızına verilmiş A-431433 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Şəki şəhər** 21 nömrəli tam orta ümumtəhsil məktəbi 2007-ci ildə bitirmiş Səmədova Günel Rəşid qızına verilmiş B-395643 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Odlar Yurdu Universiteti** tərəfindən 2007-ci ildə Mürsəlova Aygün Eldar qızına verilmiş B-103601 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 194 nömrəli tam orta məktəbi 2022-ci ildə bitirmiş Şərifova Leyla Rəhman qızına verilmiş E-450254 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Cəbrayıl rayon** Hovuslu kənd tam orta məktəbin IX sinfini 2023-cü ildə bitirmiş Məmmədzadə Azim Nazim oğluna verilmiş C-770998 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**54 nömrəli Texniki Peşə Məktəbi** tərəfindən 1990-cı ildə Ramazanov Bülbül (Elxan) Kalbalı oğluna verilmiş 495374 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Biləsuvar şəhər** 1 nömrəli tam orta məktəbi 2006-cı ildə bitirmiş Cəbrayılzadə Nicat Sübhan oğluna verilmiş 337184 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qazax rayon** Çaylı kənd 2 nömrəli tam orta ümumtəhsil məktəbin VIII sinfini 1991-ci ildə bitirmiş Məmmədov Nəbi Sərhəd oğluna verilmiş 840642 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**1 nömrəli Bakı şəhər idman liseyi** PHŞ 2022-ci ildə bitirmiş Abbasov Rüfət Ceyhun oğluna verilmiş E-463585 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Nizami kənd tam orta məktəbi 1996-cı ildə bitirmiş Əliyev Cavid Məhərrəm oğluna verilmiş A-108517 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy rayon** Düzqışlaq kənd tam orta ümumtəhsil məktəbi 2005-ci ildə bitirmiş Tağıyeva Nuranə Ramiz qızına verilmiş A-197754 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Goranboy şəhər** internat məktəbin IX sinfini 1996-cı ildə bitirmiş Əsədova (Feyzullayeva) Pərvanə Vaqif qızına verilmiş A-154019 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Sənaye və Texnologiyalar üzrə Gəncə Dövlət Peşə Təhsil Mərkəzi** tərəfindən 2022-ci ildə Quliyev Elşən Asifoviçə verilmiş A-160627 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Bakı Kompüter Kolleci** tərəfindən 2006-cı ildə Əmrahova Vüsalə Zakir qızına verilmiş BB-II-036126 nömrəli diplom itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Xaruşa kənd ümumi orta ümumtəhsil məktəbin VIII sinfini 1991-ci ildə bitirmiş Qürbətova İqlimə Süleyman qızına verilmiş AO-773535 nömrəli ümumi orta təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Quba rayon** Qaraçay qəsəbə tam orta ümumtəhsil məktəbin IX sinfini 2024-cü ildə bitirmiş Qasımov İsmayıl Mahir oğluna verilmiş C-943367 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 104 nömrəli tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Quliyev Tural Sabir oğluna verilmiş A-704916 nömrəli ümumi orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Qax rayon** Qorağan kənd tam orta məktəbin IX sinfini 2008-ci ildə bitirmiş Orucov Rahil Oruc oğluna verilmiş A-617733 nömrəli əsas təhsil haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2016-cı ildə Yolçuyeva Xatirə Məhərrəm qızına verilmiş A-090903 nömrəli bakalavr diplomu və diploma əlavə itdiyi üçün etibarsız sayılır.

**Astara Pedaqoji Kolleci** tərəfindən 2018-ci ildə Musayeva Samirə Akim qızına verilmiş AA-117175 nömrəli subbakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 17 nömrəli tam orta məktəbi 2005-ci ildə bitirmiş Karqova (Rəhimova) Yelena Vaqif qızına verilmiş B-130323 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Azərbaycan Dövlət Pedaqoji Universiteti** tərəfindən 2007-ci ildə Əhmədova Şəkər Sərvər qızına verilmiş B-090664 nömrəli bakalavr diplomu itdiyi üçün etibarsız sayılır.

**Şəmkir rayon** Əliyaqublu kənd tam orta məktəbi 2022-ci ildə bitirmiş İsmayıllı Samir Zaur oğluna verilmiş E-526180 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.

**Bakı şəhər** 136 nömrəli tam orta məktəbi 2004-cü ildə bitirmiş Muxtarov İmran Əli oğluna verilmiş B-016102 nömrəli tam orta təhsil haqqında attestat itdiyi üçün etibarsız sayılır.